Bu bir xalq qəzetidi
ƏDALƏT

## Azərbaycan ordusu mülki əhali ilə davranış qaydalarına əməl edir

**Hər gün döyüşlərdə üzləşdiyi uğursuzluqlar, verdiyi çoxlu sayda itkilər və itirdiyi vacib mövqelər düşməni müxtəlif üsullara əl atmağa vadar edir. "Müharibədə bütün vasitələr yaxşıdır" prinsipindən irəli gələrək düşmən artıq Azərbaycan Ordusunun hərbi qulluqçularına qarşı böhtan və qarayaxama kampaniyasına başlayıb.**

Bu barədə Müdafiə Nazirliyinin (MN) Mətbuat xidmətindən Adalet.az-a məlumat verilib.

Bildirilib ki, Ermənistan tərəfinin guya Azərbaycan hərbçilərinin Xocavənd rayonunun Tuğ kəndində hərbi cinayətlər törətməsi barədə iddiaları iftiradan başqa bir şey deyil: "Ali Baş Komandanın da vurğuladığı kimi "Biz heç vaxt mülki əhaliyə qarşı mübarizə, müharibə aparmamışıq, bundan sonra da aparmayacağıq". Məhz Ermənistan Gəncə və Bərdə şəhərlərinin dinc sakinlərini vəhşicəsinə raket atəşinə tutmaqla özünün əsl müharibə cinayəti törətdiyini bir daha sübut etdi.

Bildiririk ki, Azərbaycan Ordusunun şəxsi heyəti Beynəlxalq humanitar hüququn əsası hesab edilən Cenevrə konvensiyası və digər normativ-hüquqi sənədlərinin tələblərinə riayət edir. Bu isə o deməkdir ki, döyüşlərdə iştirak edən hərbi qulluqçularımız mülki əhali ilə davranış qaydalarına əməl edir".

## Çavuşoğlu: Dağlıq Qarabağ məsələsində ikili standartlar ola bilməz



**Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu Avropa Şurasının Nazirlər Komitəsini Azərbaycanın əraz bütüvlüyünü qeyd-şərtsiz müdafiə etməyə çağırıb.**

Nazir bildirib ki, bu məsələdə ikili standartlar ola bilməz: "Biz Gürcüstan və Ukraynanın suverenliyi və ərazi bütövlüyünü necə dəstəkləyiriksə, Azərbaycanın da hüquqlarını bu cür müdafiə etməliyik".

Onun sözlərinə görə, Azərbaycan yalnız beynəlxalq səviyyədə tanınmış əraziləri üzərində BMT Təhlükəsizlik Şurası, ATƏT və AŞ PA-nın qərar və qətnamələrinə uyğun olaraq nəzarət bərpa etmək istəyir:

"Ermənistan işğalı dayandırmalı və dinc sakinlərə bilərəkdən hücumlarına, atəşkəs rejiminin daim pozduğuna görə məsuliyyət daşımalıdır".

## Ermənilər təbliğat valını dəyişir... amma

Bax: səh.3

*Əbülfət MƏDƏTOĞLU*
*"Ədalət" qəzetinin baş redaktorunun birinci müavini, Əməkdar jurnalist*

## ƏRAZİMİZDƏ İKİNCİ ERMƏNİ DÖVLƏTİ OLMAYACAQ

Bax: səh.2

## Dövlət Məşğulluq Agentliyində yeni təyinat



**Adalet.az-ın məlumatına görə, Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Mustafa Abbasbəylinin əmri ilə Habil Alıyev Dövlət Məşğulluq Agentliyinin 16 saylı Regional İdarəsinə müdir təyin olunub.**

**Qeyd edək ki, adıçəkilən idarənin əhatə dairəsinə mərkəzi Saatlı şəhəri olmaqla Saatlı, Sabirabad, İmişli və Cəbrayıl rayonları aiddir.**

## YOX BİR, NATO-nun BAŞ KATİBİ?!





**Bu xarici mətbuat yazır, qondarma Dağlıq Qarabağ Respublikasının "müdafiə naziri" Cəlal Aratunyan (Cəlal Allahın adlarından biridi, it oğlu bu adı murdarlayıb), yeni baş naziri Mikayıl Arzumanyan (Mikayıl da Allahın mələklərindən biridi, gör nə adlar qoyurlar ey övladlarına, özü də bizi sevməyə-sevməyə) və onun müavini Artur Mnatsakanyan (deyəsən ikisini göndərmişik inkir-minkirin testinə).**

Dostlar, biz də bu məlumatları paylaşarkən xarici mətbuatın yekə-yekə yazdığı kimi, Dağlıq Qarabağın nə bilim müdafiə naziri, müdafiə nazirinin müavini kimi yazırıq.

Dağlıq Qarabağda, özlərinin etiraf etdiyi kimi, guya 120 min erməni yaşayır (bu Ağdamın əhalisindən 80 min, Ağcabədinin əhalisindən 20 min, Bərdənin əhalisindən 70 min azdı), əslində isə Dağlıq Qarabağın əhalisi 100 mini keçmir. Hətta bəzən Dağlıq Qarabağ erməniləri özləri bunu deyir. Onun da 70 mini qaçıb.

Yəni kəsəsi, Dağlıq Qarabağda müdafiə naziri ola bilməz, uzaqbaşı, briqada komandiri ola bilər. Ona görə də yazanda onları nazir kimi yox, briqada komandiri kimi təqdim edin.

**Bu bir dost məsləhətidi.**

Bu bir xalq qəzetidi
www.adalet.az
ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev
Gündəlik hüquq qəzeti
Qəzet 1990-cı ilin iyulundan çıxır
№ 148 (5808) 5 noyabr 2020-ci il
Qiyməti 30 qəpik

## NURLANIN GÜNAHI NƏ?



**Deməli, "Qarabağ" futbol klubunun mətbuat katibi Nurlan bəy emosiyalara qapılıb və bir status paylaşıb. Mən o statusu təkrar etmək istəmirəm, bu status yalnız bizim üçün yazılan beynəlxalq qanunlara (ermənilərin filan yerinə almadıqları qanunlara) ziddir.**

Və mən də təəssüf edirəm ki, Nurlan bəy belə bir status paylaşıb.

Xalası göyçək Solovyov birinci gün verilişində bildirdi ki, bu statusa görə Azərbaycan Respublikası Baş prokurorluğu Nurlan bəy haqqında cinayət işi qaldırıb. Olsun.

Ermənilər Gəncədə, Tərtərdə, Bərdədə, Ağcabədidə, Ağdamda bütün beynəlxalq konvensiyaları pozaraq dinc əhaliyə qarşı cinayət törədiblər. Görək, Ermənistan da buna görə o cocuqları qətlə yetirən hərbçilər barədə cinayət işi qaldıracaqmı?

Öldürülən cocuqlar haqqında Ermənistan heç bir cinayət işi qaldırmır, amma biz əli heç bir cocuğun qanına batmayan, sadəcə olaraq, bunu dilə gətirən Nurlan bəy haqqında cinayət işi qaldırırıq.

**Nə isə...**

# "Onlar neytral olmasalar, vasitəçi ola bilməzlər"



Bax:səh-2

## Nazirlikdən vətəndaşlara xəbərdarlıq

**Ermənistan kibermühitdə təxribat xarakterli məlumatlar və dezinformasiya yaymaqda davam edir.**

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən Adalet.az-a bildiirlib ki, düşmən bu dəfə də saxta xarici nömrələrdən Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin adından vətəndaşlarımıza mesaj göndərərək Ermənistan Silahlı Qüvvələrinin Tovuz rayonuna hücuma keçəcəyi və təhlükəsizlik üçün rayonu müvəqqəti olaraq tərk etmələrinə dair saxta çağırışlar edir.

Qeyd edək ki, daha öncə də vətəndaşlara Gəncə və Bərdə rayonlarına raket hücumu təhlükəsi səbəbindən sığınacaqlara yerləşmələri ilə bağlı saxta mesajlar ünvanlanıb.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi bildirir ki, bu məlumatlar əhali arasında qorxu və təşviş yaratmaq məqsədi daşıyır və həqiqəti əks etdirmir.

Vətəndaşlardan xahiş edirik ki, yalnız rəsmi mənbələrdən verilən məlumatlara etimad etsinlər, tanımadıqları nömrələrdən gələn zəng və mesajlara cavab verməsinlər, həmin nömrələri bloklasınlar, mesajları spam olaraq şikayət etsinlər.

Həmçinin baş verən kiberinsidentlərlə bağlı ekran görüntülərini (screenshot) və digər elektron sübutları saxlasınlar və bizə göndərsinlər.

Hər hansı kiberinsidentlə üzləşdiklərində və ya metodiki dəstəyə ehtiyacları olduqda, vətəndaşlar www.cert.az saytı və ya reports@cert.az e-poçtu vasitəsilə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidmətinə müraciət edə bilərlər.

## QARABAĞDA DİNC ƏHALİ QALIB Kİ?



**Ermənistanın Müdafiə Nazirliyi yazır ki, Azərbaycan Silahlı Qüvvələri Şuşada və Xocavənddə (Martuni) dinc əhalini atəşə tutub.**

Və həm özlərinin, həm də Rusiya müxbirlərinin yaydığı videolarda görünür ki, nə Şuşada, nə Xocavənddə, nə də Hadrut bölgəsində bir dinc erməni əhalisi də yoxdu. Hamısı qaçıb. Və hətta baxıram, qaçan bir Haykanuş ağlaya-ağlaya deyir ki, evimdən heç nə götürə bilmədim.

Mən təkcə bir fakt deyə bilərəm ki, mənim Ağdamda qalan evimizdəki sərvət iyirmi dənə Haykanuşun evində qalan nə bilim nələrdən artıq idi. Amma biz ona ağlamırdıq. Mal-mülkdü də gələr və gedər, biz işğal altında olan torpaqlarımız üçün ağrıyırdıq.

**Yəni dostlar, Dağlıq Qarabağda dinc əhali qalmayıb.**

## YOX BİR SENATORLAR, QUBERNATORLAR...



**Dünəndən saytlarda və sosial şəbəkələrdə bir siyahı paylaşıblar - Qarabağdan qaçan vəzifəlilər. Elə yekə-yekə vəzifəlilər yazıblar ki, xeyli güldüm .**

İndi mən həmin siyahını həqiqətə uyğun oxuculara çatdırıram.

Xankəndinin icra başçısı Araik Aratunyan Qarabağdan qaçan məmurların adlarını açıqlayır:

Başçıya çay gətirən və telefonlarını götürən Rudik Martirosyan; prokurorun köməkçiləri Erik Verdiyan və Sasun Qabrielyan; Xankəndinin Statistika İdarəsinin işçisi Armen Soqomonyan; Xankəndi Dairə Seçki Komissiyasının üzvü Yeqiş Arzumanyan; Şəhər sosial müdafiə fondunun müavini David Avanesyan; Şəhər arxitektorunun müavini Erik Qriqoryan; Şəhər maarif və mədəniyyət şöbələrinin kadrlar idarəsinin otdel kadrı Qarik Arapetyan; Maliyyə idarəsinin otdel kadrı və Araikin pul gətirəni Artaq Arustamyan.

Yəni bunların da vəzifələrini çox şişirtməyin. Dağlıq Qarabağın yüz min əhalisi var, Ağdamın iki yüz min.

**Onda gərək biz də Ağdamda vəzifələri yazanda yazaq ki, Ağdamın baş prokuroru, daxili işlər naziri, maliyyə naziri, təhsil naziri, mədəniyyət naziri, iqtisadiyyat naziri və sair və ilaxır.**

## *Rüstəm Behrudi: Ortada bir şəhid yeri boş idi!*



*Sabah-sabah Saray qəsəbəsinə bir şəhidin yasına getdim!*

*Yol boyu atasına nə cür təsəlli verəcəyimi düşündüm. Görüşəndə gözlərim doldu,o mənə təsginlik verdi.Bu millət heç vaxt bu ucalığa qalxmamışdı!*

*Rauf bəy rəssamdı. Savaşa getməmişdən əvvəl şəhidlərin xatirəsinə bir kompozisiya çəkmişdi.Ortada bir şəhid yeri boş idi! Özünü çəkməmişdi,demişdi ki,mən şəhid olandan sonra əlavə eləyərsiniz! Budu qəhrəmanlıq,budu,ölmədən ölümə qalib gəlmək!*

*Rauf İbadov ölümün özünü belə şərəfləndirən bir qəhrəmandı!*

*Ruhu şad olsun!*

## BİRİ BİR SƏHV EDİBSƏ...

**Təkrar-təkrar o səhv edənin üzərinə yüyürüb səhvini təkrar-təkrar tirajlamaq, səhv edənin səhvindən daha böyük səhvdir.**

**Bu lap Əbu Turxanın fəlsəfi cümlələrinə oxşadı.**

***Rəsul Rza: Güllələr açılmasın, güllər açılsın***



## ERMƏNİLƏR BİZƏ ÖMRÜ BOYU BORCLU QALACAQ



**Hər şeydə birinciydilər, bircə uçmağı bilmirdilər, onu da bizim ordumuz onlara öyrətdi!**

**Namərdlər elə qəşəng uçurlar ki, amma yenəndə cəhənnəmə yenirlər.**

***Aqil ABBAS***
***aqilabbas@rambler.ru***

## ƏRDOĞAN BİLMİR DÜNYA İLƏ VURUŞSUN, YOXSA...



**Qardaş Türkiyənin sayın cümhurbaşkanı Rəcəb Tayyib Ərdoğan artıq bir neçə ildir ki, az qala bütün dünya ilə vuruşur. Türkiyə Atatürkdən sonra böylə bir lider görməmişdi. Həmişə Türkiyəyə yuxarıdan aşağı baxan ABŞ və Avropa ölkələri çaşıb qalıb. Və sayın Ərdoğan bütün dünyaya göstərdi ki, Yaxın Şərqdə, eləcə də Qafqazda heç bir dövlət onsuz söz sahibi ola bilməz. Və bunu əməli ilə sübut elədi: həm İraqda, həm Suriyada, həm Liviyada, həm Fələstində və sair və ilaxır. VƏ ELƏCƏ DƏ ZAQAFQAZİYADA. 21 ərəb dövlətinin eləyə bilmədiyini sayın Ərdoğan elədi və eləyir.**

**Artıq dünyanın böyük dövlətləri və dünya liderləri sayın Ərdoğanla hesablaşmaq zorundadı.**

**(Ardı 2-ci səhifədə)**

## İran prezidenti: Öz ərazi bütövlüyünü bərpa etmək Azərbaycanın haqqıdır



**Öz ərazi bütövlüyünü bərpa etmək Azərbaycanın haqqıdır.**

Bunu İran prezidenti Həsən Ruhani Nazirlər Kabinetinin iclasında deyib.

H.Ruhaninin sözlərinə görə, İranın Xarici İşlər Nazirliyi bununla əlaqədar öz planını Azərbaycan, Ermənistan, Türkiyə və Rusiyaya təklif edib. Prezident əlavə edib ki, İran bu planının qarşıdurmalara son qoyacağını və sülh ilə nəticələnəcəyinə ümid edir.

# Daha 7 kəndimiz işğaldan azad edildi



**Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Mirək, Kavdar, Zəngilan rayonunun Məşədismayıllı, Şəfibəyli, Qubadlı rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!**

**Adalet.az xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində bildirib.**

## «Ermənistanın namərd hücumları bizim iradəmizi sındırmadı»

**Sülh danışıqlarının heç bir nəticə verməməsinin günahkarı Ermənistandır. Birinci atəşkəs Moskvada razılaşdırılmışdı, 24 saatdan da az vaxt ərzində onlar Ermənistan ərazisindən ballistik raketlə Gəncəyə hücum etdilər. Bu, sübut olunub. Rusiya, Fransa, Amerika Birləşmiş Ştatları və bir çox başqa ölkələr raketin Ermənistandan buraxıldığını bilirlər. Paşinyan bunu onlar etməyiblər dedikdə yalan danışırdı.**

Adalet.az xəbər verir ki, Prezident İlham Əliyev bunu İtaliyanın "La Repubblica" qəzetinə müsahibəsində Ermənistan tərəfinin atəşkəs razılaşmalarını kobud şəkildə pozması barədə danışarkən bildirib.

Gəncəyə gecə vaxtı edilən iki namərd hücum nəticəsində 30 günahsız insanın, o cümlədən uşaqların öldürüldüyünü diqqətə çatdıran dövlətimizin başçısı deyib: "İkinci atəşkəs elan olunduqdan beş dəqiqədən sonra onlar tərəfindən pozulmuşdur və üçüncü atəşkəsi onlar Bərdəyə hücum etməklə pozdular. Beləliklə, bunu edən biz deyildik. Biz nə etməli idik? Onlar bizi öldürdükdə oturub gözləməli idik? Əlbəttə ki, biz cavab verdik və bunu etməyə davam edəcəyik. Onlara atəşkəs təcavüzlərini davam etdirmək, bizim azad etdiyimiz torpaqları geri alıb və yenidən işğal etməyə cəhd etmək üçün lazım idi. Onlar mülki şəxslərə hücum etməklə Azərbaycanda, həmçinin xaos və panika yaratmaq istəyirdilər. Lakin onlar Azərbaycan xalqının ruhunu düzgün hesablaya bilməmişdilər. Bəli, biz bu namərd hücumlardan əziyyət çəkdik. Bu vaxtadək 91 nəfər mülki şəxs öldürülüb və 400-dən çox adam yaralanıb. Lakin bu, bizim iradəmizi sındırmadı. Əksinə, bu, bizi daha da güclü etdi".

## «Türkiyə yalnız siyasi-mənəvi dəstək göstərir

**Ankaranın Azərbaycana dəstəyi sentyabrın 27-də başlayan toqquşmaların ilk saatlarından gəldi. Türkiyə Prezidenti çox aydın bəyanatla çıxış etdi ki, Türkiyə Azərbaycanın yanındadır və bu, siyasi və mənəvi dəstəyin çox mühüm göstəricisi idi.**

Adalet.az xəbər verir ki, Prezident İlham Əliyev bu sözləri İtaliyanın "La Repubblica" qəzetinə müsahibəsində rəsmi Ankaranın dəstəyini şərh edərkən söyləyib.

Dövlətimizin başçısı deyib ki, Türkiyə yalnız siyasi-mənəvi dəstək göstərir və bu, kifayət edir: "Çünki Türkiyə kimi güclü ölkə bu məsələ ilə bağlı mövqeyini açıq şəkildə bəyan edəndə, həm də bütün dünyaya mesaj göndərir ki, Azərbaycan doğru işi görür. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edir, Azərbaycan öz ərazisində döyüşür, biz təcavüzkar deyilik, biz başqa ölkələrə hücum etmirik. Ona görə də, toqquşmaların ilk saatlarında başlayan və indiyədək davam edən bu siyasi dəstək münaqişənin həlli üçün mühüm əhəmiyyət kəsb edir".

## «Onlar neytral olmasalar, vasitəçi ola bilməzlər»

**Eyni zamanda BMT Təhlükəsizlik Şurasının daimi üzvləri olan Minsk qrupunun həmsədrləri - üç ölkə 1993-cü ildə Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələr qəbul ediblər. Ona görə də, bu ölkələr özləri həll üçün qanuni baza yaradıblar. Lakin Ermənistan bu qətnamələri yerinə yetirmədi.**

Adalet.az xəbər verir ki, Prezident İlham Əliyev bu barədə İtaliyanın "La Repubblica" qəzetinə müsahibəsində həmsədrlərin neytrallığının vacibliyindən danışarkən bildirib. "Mənim istinad etdiyim başqa bir məqam ondan ibarətdir ki, vasitəçilər vəziyyətlə bağlı necə fikirdə olmaqlarından, bizimlə və ya Ermənistanla əlaqələrinin nə dərəcədə yaxın olmağından asılı olmayaraq neytral olmalıdırlar. Lakin onlar neytral olmasalar, vasitəçi ola bilməzlər. Ona görə də, bizim yerində bu və ya digər dərəcədə gördüyümüz neytrallıq, düşünürəm ki, işlərin necə getməsinin yeganə yoludur. Odur ki, bu, bizim üçün yaşıl işıq deyildi. Biz sentyabrın 27-də Ermənistanın hücumunadək nə edəcəyi barədə 100 faiz təsəvvürümüz olmadan cavab verdik, biz ölkəmizi qorumaq, insanlarımızı qorumaq və ədaləti bərpa etmək üçün doğru olduğunu düşündüyümüzü etdik", - deyə Azərbaycan Prezidenti vurğulayıb.

# ƏRAZİMİZDƏ İKİNCİ ERMƏNİ DÖVLƏTİ OLMAYACAQ

## Xalqın istəyini Ali Baş Komandanımız qətiyyətlə ortaya qoyub

**Azərbaycan adlı məmləkətin bügünkü gerçəkliyi sözün həqiqi mənasında qələbə, sevinc və yekdillikdən ibarətdir. Bu üç məqam özünü bir ünvanda tapıbdı. Həmin ünvan isə ordumuzun Ali Baş Komandanı, Azərbaycan Prezidenti cənab İlham Əliyevdir. Birmənalı olaraq etiraf etmək lazımdır ki, xalqımızın tarixində Böyük Qələbənin başlanğıcı, Böyük Vətən Müharibəsi məhz 27 sentyabr 2020-ci ildən başlayır.**

Həmin gün düşmən təxribatına cavab olaraq ordumuza əks hücuma keçmək əmri verən Ali Baş Komandan bütün dünyanı silkələdi. Yəni 30 il səbr etmiş bir xalq, bir dövlət və onun Ali Baş Komandanı bu əmrlə göstərdi ki, ən yüksək tribunalardan söylədiyi fikir artıq gerçəkləşib. Belə ki, böyük güc sahibi olan ölkə liderləriylə, beynəlxalq təşkilatların rəhbərləriylə görüşlərində vurğulamışdı ki, ***"Azərbaycan xalqının səbri hüdudsuz deyil. Biz problemin sülh yolu ilə həllinin tərəfdarıyıq. Amma danışıqlar aparmaq heç də prosesin sülhə doğru getdiyini büruzə vermir. Açıq-aşkar görünür ki, bu, manipulyasiyadır. Biz isə bununla razılaşa bilmərik".***

Bəli, bu fikirlər demək olar ki, Minsk qrupu fəaliyyətə başladığı gündən həm xalqın içindən gəlib keçir, həm də onun Prezidentinin. Çox təəssüf ki, ATƏT-in Minsk qrupu dilə gətirilən bu iraddan heç bir nəticə çıxarmadı. Nəticədə isə söz Azərbaycan ordusuna verildi. Bu, həyatın zərurəti idi. Ona görə də beynəlxalq media təmsilçilərinə müsahibə verən Azərbaycan Prezidenti həmin o həyati zərurəti xüsusi vurğulamışdı. Qeyd etmişdi ki, ***"Rəsmi İrəvan bütün dövrlərdə başqa ölkələrin arxasında gizlənməyə nail olur. Onların problemlərini başqa ölkələr həll edir. Müasir erməni dövlətinin ideologiyası da əslində bundan ibarətdir. Bu ideologiyanın çox dərin tarixi kökləri var".*** İnterfaks Agentliyinin suallarını cavablandırarkən Azərbaycan Prezidenti müxbirə bir tarix dərsi də keçdi. Hadisələrin mahiyyətindən xəbərsiz olan, kor-koranə şəkildə ikili standartlardan çıxış edən, bəzən isə açıq şəkildə Ermənistanın vəkili, havadarı rolunda çıxış edən müəyyən media mənsublarının faktlardan xəbərsiz olmasını ölkə başçısı İnterfaks Agentliyinin təmsilçisinə də söylədi. O vurğuladı ki, ***"Ermənistan tarixən regionumuzda olan münaqişələrin birbaşa səbəbkarıdır. Son 200 ilin tarixini, eləcə də Qafqazın tarixini izləsək, onda görərik ki, məhz Ermənistanın yarıtmaz siyasəti ucbatından neçə müharibələr baş verib. Həmçinin görərik ki, bu yarıtmaz siyasət ucbatından onlar başqa ölkələr üçün təxribatlar yaradıblar. Eləcə də aydın olar ki, onlar münaqişə yaradıb sonra da kolluğa qaçaraq və sonra da kimlərinsə arxasında gizlənərək başqa xalqların qanının axıdılmasının və qarşıdurmanın bəhrələrini götürürlər. Bu da o deməkdir ki, Ermənistan Qafqazın bədənində yad cism kimi qalmaqdadır".***



Çox kəskin və tarixi gerçəkliyə söykənən məntiqlə deyilmiş bu fikirlər ermənilərin bir xalq, bir dövlət olaraq bütün məzmununu özündə ifadə edir. Hər hansı bir vətəndaş ermənidən başqa hansı millətə aid olur olsun, bu gerçəkliyə ayıq başla, açıq gözlə baxsa, onda erməni kimliyini bütün paramertləri ilə öyrənmiş olar. Görər ki, həqiqətən ermənilər Yer üzünün hələ ki, müalicəsi tapılmayan pandemiyasıdır.

Ali Baş Komandanın məhz həmin müsahibədə vurğuladığı bir məqam da bundan ibarətdir ki, ermənilər tarixən Azərbaycan torpaqlarında yaşamayıblar və bu torpaqlarda da onların dövlətləri olmayıbdı. Təəssüf ki, tarixi unudanlar erməni yalanlarına daha çox istinad edirlər, nəinki arxivlərdən bütün elektron mənbələrə köçürülmüş faktlara. Elə bu məqamda Azərbaycan Prezidentinin dediyi və ermənilərin Azərbaycana köçürülməsi ilə bağlı olan faktlar bir gün işığı kimi ortaya çıxır. Deməli, çar Rusiyasının yeritdiyi siyasətin törəməsi olan, sonra isə sovet rejiminin dövlət yaratmasına imkan verdiyi, əslində həm də yardım etdiyi ermənilər bu gün ortaya atdıqları böyük Ermənistan iddiaları ilə nəinki Azərbaycana qarşı, həmçinin Türkiyəyə, Gürcüstana, lap elə Rusiyanın özündən də ərazi istəklərini dilə gətirirlər. Çox təəssüf ki, kimsə, yəni böyük güc sahibi olan dövlətlər bu azğınlaşmış, xəstə təfəkkürlü insanları yerində oturtmur.

Əksinə, onları silahlandırır, onların terrorçu kimi fəaliyyətinə, şəbəkə yaratmasına dolayısı ilə yardım edirlər. Həmin dəstəyin nəticəsidir ki, dünya ictimaiyyətinin gözləri qarşısında, Minsk qrupunun həmsədrlərinin görmədikləri siyasət həyata keçirilir. Bu siyasət işğal olunmuş Azərbaycan ərazilərinin məskunlaşdırılmasıdır.

Ali Baş Komandanımız İlham Əliyevin də dediyi kimi, ***"Son illərdə Paşinyanın siyasəti təkcə qonşu dövlətlərə deyil, Ermənistanın özünün suverenliyinə də təhlükələr yaradır. Bu rejimin Dağlıq Qarabağ adlı qondarma və heç kimin də tanımadığı "qondarma respublikanın" başçısı üçün Şuşada andiçmə mərasimi keçirməsini təşkil etməsi açıq-aşkar Azərbaycana təhdiddir və təhqirdir. Biz bütün bunlara dözə bilməzdir. Üstəlik, Cenevrə konvensiyasını nümayişkaranə şəkildə pozaraq Livandan, Suriyadan və digər ölkələrdən erməniləri Dağlıq Qarabağa gətirib məskunlaşdırmaq və o cümlədən Şuşada məskunlaşdırmaq, o cümlədən "Dağlıq Qarabağ parlamenti"nin Xankəndindən Şuşaya köçürülməsi və s. açıq-aşkar təxribatlardır. Bu təxribatlar isə özü öz növbəsində yeni təhlükələrin yaradılmasına xidmət edibdi. Deməli, Azərbaycana qarşı sərgilənən bu mövqe, göstərilən bu münasibət bizi düşməni yerində oturtmağa, onu döyüş meydanında cəzalandırmağa məcbur etdi".***

Ölkə əhalisinin səbrsizliklə gözlədiyi məqamlar içərisində bir məqam xüsusilə önəmlidir. Bu məqam da Ali Baş Komandanın xalqa verdiyi müjdələrdi. Demək olar ki, böyüklü-kiçikli hər kəs Ali Baş Komandanın televizorla xalqa müraciətini nəfəs dərmədən dinləyir. Çünki həmin an Azərbaycan insanı olaraq hər kəs təkcə sevinc hissləri yaşamır, həm də 30 ilin nisgilindən, ağrı-acısından, həsrətindən xilas olur. Bu xilaskarlıq missiyasını komandanımız olan cənab İlham Əliyev Azərbaycan Ordusunun timsalında yerinə yetirir. Ona görə də bu gün ordu və xalqın birliyi, ümumiyyətlə, Azərbaycanda hər kəsin bir yumruq olması günümüzün gerçəkliyidir. Elə bu real gerçəklik də həm siyasət, həm də döyüş meydanında qələbələrimizin təminatçısıdır. Ali Baş Komandanımızın dediyi kimi, ***"Azərbaycan ərazisində ikinci erməni dövləti heç vaxt yaradılmayacaq. Azərbaycanın beynəlxalq miqyasda tanınmnış ərazilərində ermənilərlə bağlı heç vaxt referendium olmayacaq. Öz müqəddəratını təmin etmək hüququ beynəlxalq hüquqda təsbit edilsə də, onun mühüm prinsiplərindən biri olsa da, bu gün otuz il bizə laqeyd olmuş, həmin beynəlxalq hüququ biz diqtə edirik. Deməli, ölkəmizin ərazi bütövlüyünü poza biləcək heç bir təyini-müqəddəratdan söhbət gedə bilməz!"***

**Bəli, budur Azərbaycanın QƏRARI! Budur ölkə Prezidentinin mövqeyi! Çünki Qarabağ Azərbaycandır! Yaşasın Azərbaycan Ordusu!**

**Əbülfət MƏDƏTOĞLU**
**"Ədalət" qəzetinin baş redaktorunun birinci müavini, Əməkdar jurnalist**

# Milli Məclisin növbəti plenar iclası keçiriləcək

**Sabah Milli Məclisin növbəti plenar iclası keçiriləcək. Bu haqda Milli Məclisin mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi məlumat yayıb.**



İclasın gündəliyinə 7 məsələ daxil edilib:

**1.** "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).

**2.** "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).

**3.** Azərbaycan Respublikasının Meşə Məcəlləsində, Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Torpaq islahatı haqqında", "Torpaq bazarı haqqında", "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında", "Dövlət rüsumu haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında" və "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

**4.** Azərbaycan Respublikasının Əmək Məcəlləsində və Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).

**5.** "Hərbi qulluqçuların statusu haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Yol hərəkəti haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Avtomobil yolları haqqında", "Özəl tibb fəaliyyəti haqqında", "Dövlət qulluğu haqqında", "Psixiatriya yardımı haqqında", "Onkoloji yardım haqqında" və "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

**6.** "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

**7.** "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

**Nicat Novruzoğlu**

Aqil ABBAS

# ƏRDOĞAN BİLMİR DÜNYA İLƏ VURUŞSUN, YOXSA...

**(əvvəli 1-ci səhifədə)**

**Adicə bir misal. Elçibəyin xahişi ilə Kəlbəcərdəki əhalini xilas etmək üçün Allahın bir vertolyotunu kömək üçün bizə göndərməyən Süleyman Dəmirəl yəqin ki, hamınızın yadındadı. Amma sayın Ərdoğan Azərbaycanın işğal altında olan torpaqlarını azad etməsi üçün hətta heç bir "qırmızı xətti" tanımadığını bildirdi.**

**Sayın Ərdoğanla mən bir dəfə görüşmüşəm. Və ürəyimdəki sözləri ona demişəm. Bu başqa bir yazının mövzusudu, yaxın nömrələrdə bunu yazacam.**

**Gələk əsas mətləbə və bu köşəni niyə yazdım?**

**Azərbaycan müqəddəs bir müharibəyə başlayıb.**



**Və ən gözəli və qəribəsi budur ki, ölkədəki 52 siyasi partiyadan 50-si bir bəyanat verərək bu müqəddəs müharibədə Möhtərəm Prezident İlham Əliyevi və xalqımızı dəstəkləməklə bu bəyanatı imzaladı.**

**Yalnız AXCP və Müsavat partiyaları bu bəyanata imza atmadılar. Amma həmin partiyaların verdiyi bəyanatlar, liderlərinin müsahibələri, çıxışları onu göstərdi ki, onlar da bu müharibədə prezident və xalqla birlikdədi.**

**İndi bir daha gələk mətləbə. Bəli, bütün Azərbaycan "Şur" üstə köklənib, yəni qələbə üstə.**

**Məni narahat edən nədir? Sayın Ərdoğan haqq-ədalət uğrunda dünyanın böyük dövlətləri ilə və onların liderləri ilə açıq döyüşə girib. Azərbaycanda belə bir söz var: "Öz qanını bir qaşığa qoyub". Amma təəssüf ki, Turkiyənin, CHP başda olmaqla, aparıcı partiyalarının Türkiyənin bu ağır günündə sayın Ərdoğanın yanında olmaması yandırır məni . Sayın Ərdoğanın keçmiş silahdaşları Əli Babacan və Əhməd Davudoğlu hərəsi bir partiya qayırıb və qoşulub Kamal Kılıçdaroğluna və sair və ilaxır. Və Türkiyənin bu ağır günündə radikal müxalifətçilik edirlər. Bax, mən bunu başa düşmürəm.**

**Bu gün Azərbaycan müxalifəti bütün siyasi iddialarını bir kənara qoyub, prezident İlham Əliyevin yanındadılarsa, mən elə bilirdim ki, Türkiyədə də bütün siyasi partiyalar öz iddiarını bir kənara qoyub sayın Ərdoğanın yanında olacaqlar.**

**Amma bunu görmədim və təəssüf edirəm. Qardaş ölkənin siyasi partiyaları, sizin sayın Ərdoğanın yanında olub-olmadığınız heç nəyi dəyişməz. Sadəcə, qan qaraltmaqdır! Sayın Ərdoğan bütün dünyaya sübut elədi ki, Türkiyə qüdrətli bir dövlətdir, heç kəsin sözü ilə oturub-durmur (onda ki müxalifət ola) və Şərqdə heç bir problem Türkiyəsiz həll oluna bilməz.**

**Tanrı Ərdoğanı qorusun!**

**Və ümumiyyətlə, Tanrı elə hamımızı qorusun!**

## *Məşhur topçunun atası: "Dedim, sən necə böyümüsən oğlum, xəbərim olmayıb"*



**"Axşam evdəydim. Dostlardan biri zəng elədi ki, internetdə Vüsalın şəkli yayılıb. Ürəyim düşdü. Nə şəkil, nə foto, deyə soruşdum. Dedilər ki, İslam, qorxub eləmə, salamatçılıqdır. Bütün Azərbaycan sənin oğlundan danışır".**

Lent.az bildirir ki, bunu son günlər fotosu bütün sosial şəbəkələri, saytları bəzəyən topçu əsgərimizin atası İslam Şahkərimov deyir.

Yəqin bildiz söhbət kimdən gedir. Topla düşmən üzərinə od saçan, sonra da arxaya belə dönmədən məğrur görkəm almış o əsgərimizdən. Vüsal İslam oğlu Şahkərimov 2001-ci il iyunun 29-da Xaçmaz rayonunun Qusarçay kəndində anadan olub. Orta təhsilini eyni kənddə şəhid Arif Məmmədov adına orta məktəbdə alıb.

Atası onun barəsində danışır:

"Məktəbdə çox yaxşı oxuyurdu. Nizamlı uşaq idi. Həm də çox sakit, tərbiyəli. Orta məktəbi bitirəndən sonra sənədlərini ali məktəbə verdi. Amma ödənişliyə düşdü. Düzü, imkanımız olmadı onu oxutmağa. Elə özü də dedi ki, əsgər gedim qayıdım pulsuza düşüb oxuyacam".

İslam kişi deyir ki, Vüsalın fotosunu ona göstərəndə göz yaşlarını saxlaya bilməyib:

**"Dedim, qurban olum sənə, sən necə böyümüsən ki, xəbərim olmayıb. Qəhrəman balam, dedim, telefonu qucaqlayıb öpdüm. Mən fəxr edirəm ki, belə bir oğul böyütmüşəm. Şükürlər olsun ki, belə oğullarımız sayəsində əsgərlərimiz erməniləri iti qovan kimi qovub çıxarır işğal olunmuş kəndlərimizdən. Qoy qısa müddətdə qələbəmizlə bitsin müharibə. Bütün oğullarımız salamat qayıtsın. Amin!".**

## *Polkovnik Hafiz Ağayev sağdır - Ermənistanın növbəti yalanı ifşa olundu*



**Ermənistanın daha bir yalanı ifşa olunub.**

**Belə ki, ermənilərin Azərbaycan ordusunun polkovniki Hafiz Ağayevin həlak olması barədə məlumatı saxta çıxıb.**

**Müdafiə Nazirliyiindən bildiriblər ki, Hafiz Ağayev sağdır, hazırda xidmətini davam etdirir.**

**Qeyd edək ki, Ermənilər tərəfində Hafiz Ağayevin olduğu maşınıın dörd gün əvvəl minaya düşdüyü xəbəri yayılmışdı.**

# MƏN ARVAD DAVASI ELƏMİRƏM, TORPAQ DAVASI EDİRƏM

## («Dolu»dan bir parça)

Döyüşlərin birində əllərinə bir erməni qızı düşmüşdü. İntiqam eşqindən gözlərini qan tutmuş Vurğun Vurmuş Cavanlar qızı zorlamaq istəmişdilər. Amma tir-tir titrəyən qızın insanın iliyinə işləyən yalvarışlı baxışları hələ insanlığını tam itirmədiyindən onun qanını dondurmuşdu. Yaralı ac qurdların əlinə düşmüş çarəsiz, ümidi Tanrıdan üzülmüş bu qızın zorlanmasına biganə qala bilməmişdi. Dəxli yox idi ki, bəlkə də günün birində bu qız onu vuracaqdı, amma indi onun qarşısında sabah onu vuracaq bir düşməni görmürdü, Tanrının ondan imdad diləyən yaratdığı bir varlığı görürdü. Bəlkə də uşaqlar bu qızı güllələsəydilər fərqinə varmazdı, amma zorlanmasını qəbul edə bilməmişdi.

Və qızcığazı kolluğa basmaq istəyən uşaqları saxlamışdı:

- Dəyməyin!

Araya mübahisə düşmüşdü.

- Bəs onlar bizimkiləri zorlaya bilər?!

- Biz erməni deyilik!

Onu yaxşı tanımayanlardan biri:

- Ə, nə lotuluq eləyirsən?- deyib qızın üstünə yeriyəndə o, gülləni lüləyə verib bağırmışdı:

- Kimin kişiliyi çatır, buyursun! Cırıq-cırıq eləyərəm! Dedim ki, biz erməni deyilik.

Onun hədəqəsindən çıxmış gözlərindən qorxub geri çəkilmişdilər.

Sonra qızın əynindən çıxarılmış pal-paltarı avtomatın lüləsi ilə yerdən qaldırıb atmışdı üstünə.

- Geyin! Sürük burdan!

Soyulmuş kənd yumurtası kimi qəşəng və yeməli olan qızcığaz bayaqdan ayıb yerlərini örtmək istədiyi əlləri əsə-əsə paltarlarını götürüb tələm-tələsik geyinmişdi, amma sonra yerindən tərpənməmişdi.

- Sürük dedim sənə!

Qulaqlarına inanmayan qız ehmal-ehmal geri çəkilməyə başlamışdı və qorxa-qorxa soruşmuşdu:

- Qardaş, adın nədi?

- Sənin qardaşıyın... Sürük dedim.

- Sən Həzrət Abbas, adın nədi?

Qarabağ erməniləri bizimkilərə and verəndə Həzrəti-Abbasa and verərdilər. Və onlar da çox yaxşı bilirdilər ki, qarabağlılar Tanrıdan çox Həzrəti-Abbasdan qorxurlar.

Qızın belə bir ağır and verməsi onu əsəbləşdirmişdi:

- Səni zorlayıb güllələmədiyimə görə adım eşşək oğlu eşşəkdi! Sürük dedim, qəhbə!

Qız daha heç nə soruşmamışdı, çevrilib üzü erməni kəndinə doğru qaçmağa başlamışdı, heç dala da baxmamışdı.

Axşam Komandir erməni qızını buraxdığına görə onu danlayanda demişdi:

- Komandir, mən arvad davası eləmirəm, torpaq davası eliyirəm.

*Aqil ABBAS*

# HƏR ŞEY CƏBHƏ ÜÇÜN!..

**İçi biz qarışıq hamı müharibədən, döyüşlərdən yazır. Arxa cəbhəni unuduruq. Arxa cəbhə olmasa, yəni arxa cəbhə ön cəbhəyə xidmət eləməsə ordumuz belə zəfərlər qazana bilməz.**

**II Dünya müharibəsi zamanı belə bir şüar vardı: "HƏR ŞEY CƏBHƏ ÜÇÜN, HƏR ŞEY VƏTƏN ÜÇÜN!" . İndi bu gün də bu, bütün Azərbaycanın şüarına çevrilmişdi: "HƏR ŞEY CƏBHƏ ÜÇÜN, HƏR ŞEY VƏTƏN ÜÇÜN!"**

**"Dolu" da belə bir yer var, Katib deyir ki, burda şəhərlərini qoruyan camaat var, özü də güllə altında yaşayırlar.**

**İndi güllə yox ey, bomba, raket altında yaşayan və "Hər şey cəbhə üçün!" deyib çalışan camaatımızdan yazmaq istəyirəm.**

**Ağcabədi rayonu. Hər gün rayonun Qiyamadınlı, Arazbar, Minaxorlu, Bayat, İmamqulubəyli, Qaraxanlı və Hacılar kəndləri minaatanlarla, ağır artileriyalarla, raketlərlə atəşə tutulur.**

**Hacılar mənim doğulduğum kənddi. İndiyədək bu kəndə üç yüzmü, beş yüzmü mərmi düşüb. Hətta qəbiristanlığı da vurublar. Kənddə qırxa yaxın ev dağılıb. Çoxu da lap yararsız hala düşüb. Elə doğulduğum Ocağa da, pirlərimizə də (Seyid Heydər Ağanın və Seyid Məhəmməd Ağanın, Seyid Məhəmməd Ağanın piri də çox ciddi xəsarət alıb) mərmilər düşüb. Şükürlər olsun ki, ölüb-itən, yaralanan yoxdu. Camaat deyir ki, bizi əsgərlərimiz və bir də seyidlərin cəddi qoruyur.**

**Seyidlərin cəddi cənabi Peyğəmbər xatirinə Allah bütün əsgərlərimizi qorusun!**

**Və bu kəndlərin camaatı heç nədən çəkinmədən ön cəbhə üçün çalışırlar.**

**Pambıq, bilməyənlər üçün deyirəm, strateji bitkidir. Təkcə hərbdə əlli məqsəd üçün istifadə olunur. Birini deyim qırx doqquzu qalsın: barıt da pambıqdan hazırlanır.**

**Və bu atəşin altında çalışan qeyrətli əməkçilərimiz bu günə qədər 28 min tona yaxın pambıq yığıb dövlətə təhvil veriblər. Elə sahələr var ki, hətta 65 sentner məhsul götürülüb. ANAMA da sağ olsun ki, pambıq sahələrinə düşüb partlamayan mərmiləri zərərsizləşdirir ki, insanlar zərər görməsin. Siz bir düşünə bilərsiniz, göydən mərmi yağır, amma pambıqçılar sahədədilər, pambıqyığan maşınlar sahədədi. Artıq onlar qorxu hissini çoxdan unudublar.**

**Eləcə də qarğıdalı, silos, çuğundur artıq yığılıb dövlətə təhvil verilib. Min tonlarla taxıl istehsal olunub. HƏR ŞEY CƏBHƏ ÜÇÜN!**

**Eləcə də həm Bərdə şəhəri, həm də kəndləri atəş altındadı. Nə qədər dinc əhali şəhid olur, nə qədəri yaralanır. Amma buna baxmayaraq, "HƏR ŞEY CƏBHƏ ÜÇÜN" Bərdə camaatının əsas şüarına çevrilib. Bu günədək bərdəlilər 26 min ton (hər hektardan 35 sentner) pambıq yığıblar. Hər gün zavodlara 1000-1200 ton pambıq göndərilir. Silos, qarğıdalı, taxıl yığımı çoxdan başa çatıb, hazırda tərəvəz yığımı davam edir. Hazırda atəşin altında payızlıq taxıl əkini aparılır. Torpaq şumlanır, arata qoyulur.**

**Həm ağcabədililərin və bərdəlilərin oğulları ön cəbhədə vuruşur , həm də ataları arxa cəbhədə onlar üçün və bütün əsgərlərimiz üçün yorulmadan çalışırlar.**

**Növbəti dəfə Tərtər, Füzuli, Ağdam və Goranboy rayonlarından, bu rayonların igid camaatından yazacam.**

**Özü də bu yazdıqlarımı havadan götürməmişəm , özüm canlı şahidiyəm. Həmin arxa cəbhədə çalışan o kənd əməkçiləri ilə söhbət eləməyin, çay içməyin (bəzən ayaqüstə) ayrı ləzzəti və ayrı dadı var.**

**Dövlət Statistika Komitəsindən də bir xahişim var. Yaxşı olar ki, saytınızda pambıq yığımı ilə əlaqədar gündəlik məlumatı yerləşdirəsiniz. Başqa mətbuat orqanlarını deyə bilmərəm, mən həmin məlumatı qəzetimizin 1-ci səhifəsində dərc edəcəm.**

**Saytınıza baxdım, belə bir məlumatla rastlaşmadım. Bəzi rayonların məlumatları isə çox köhnədi, hətta 2019-cu ilin məlumatıdı.**

# Ermənilər təbliğat valını dəyişir... amma

**Xarici ekspertlərin qənaətinə görə Ermənistanın tam məğlub olub ağ bayraq qaldırmasına sayılı günlər qalıb. Bu proqnoz, şübhəsiz ki, işğaldan qurtulduğu rəsmən elan olunmuş şəhər, qəsəbə, kənd və strateji yüksəkliklərdən əlavə bir çox istiqamətlərdəki mövqe üstünlüyümüzün analizindən qaynaqlanır. Həmin üstünlükləri birbaşa olmasa da dolayısıyla erməni tərəfinin özü də etiraf eləyir. Düşmənin, demək olar ki, hər gün yaydığı cəbhə xəbərlərində erməni ordusunun guya "taktiki səbəblərdən" geri çəkilməsi barədə məlumatların yer alması həmin etirafın göstəricisidir.**

Ermənistan rəhbərlərinin son günlər dünya liderlərinin tez-tez zəhlələrini tökməsi də, təbii ki, "taktiki geriçəkilmə" ilə yox, tam məğlubiyyətin artıq qapının dalından boylanmasıyla bağlıdı. "O, Prezident Putinə gündə beş dəfə zəng edir, o, Prezident Makrona ola bilsin bir qədər az zəng edir, amma yenə də zəng edir, o, hər kəsə zəng edir. O, Avropa liderlərinə zəng edir". Bu günlərdə prezident İlham Əliyevin İtaliyanın "La Republika" qəzetinə verdiyi müsahibəsində dediyi bu sözlər ümidi hər yerdən üzüldüyünə görə qurtuluş yolunu kabinetindəki telefon aparatına bağlamış Paşinyanın hazırkı durumunu çox



dəqiq təsvir eləyib. Onların dünya liderlərinin zəhləsini tökməsi təzə hadisə deyil, ən azı bir əsrdən çoxdur ki, "bizi qırırlar" deyə əyinlərinə kəfən geyinib məzlum-məzlum böyük dövlətlərin qapılarında dolaşırlar. Paşinyanın son zənglərinin cavabsız qalması da göstərir ki, daha bu cür nağıllara ya heç kim inanmır, ya da əhəmiyyət vermək istəmirlər. Onu Putinə göndərdiyi məktuba xarici işlər nazirliyi səviyyəsində cavab verilməsi isə, sadəcə, diplomatik etiketin pozulması deyil, açıq-aşkar, "başımdan rədd ol deməkdir". Bu həqiqətləri, görünür, Ermənistan rəhbərliyində də yavaş-yavaş başa düşürlər. Odur ki, indi valı dəyişməyə, qaraçı metodlarından əl çəkib "praqmatizm" nümayiş etdirməyə başlayırlar. Bu cür dahiyənə bir " praqmatik yanaşmanı" bu günlərdə öz aləmində ölkənin prezidenti Aram Sərkisyan sərgiləyib. Sərkisyan Rusiyanın RBK kanalına müsahibəsində artıq "genosid" ağlaşmasının böyük dövlətləri ilgiləndirmədiyini görüb, onları maraqlarıyla şantaj edir. Sərkisyan deyir ki, Türkiyənin guya özüylə eyni etnik kökə malik olan qardaşlarını erməni təcavüzündən qurtarmaq üçün Azərbaycana dəstək verməsi barədə söz-söhbətlər cəfəngiyyatdır, onların əsas məqsədi bölgənin enerji qaynaqlarını, neft-qaz ehtiyatını öz əlinə keçirtmək istəməsidir. Böyük siyasətçi və diplomat keçmişi olan Sərkisyan başa düşmür və ya başa düşmək istəmir ki, bölgənin neft və qaz ehtiyatları artıq çoxdan bölüşdürülüb, payını alan alıb, almayan kənarda qalıb və məsələ bitib. Sərkisyan onu da səhv edir ki, əslində, Türkiyənin Azərbaycana siyasi və mənəvi dəstəyinin kökündə heç etnik amil də dayanmır. Türkiyənin məqsədi bölgədə əbədi sülhü təmin eləmək üçün beynəlxalq qurumların 30 ildir ki, eləyə bilmədiklərini və ya eləmək istəmədiklərini özü təkbaşına gerçəkləşdirməyə çalışan Bakıya öz haqlı mübarizəsində yuxarıda dediyimiz mənəvi-siyasi dəstəyi göstərməkdir.

**Vaxtilə xarici havadarlarının hesabına Azərbaycan torpaqlarını işğal edənlər qisas gününün gələcəyini unutduqlarından danışıqlarını da itiriblər. Odur ki, uzun illər fırlatdıqları üçün xarab olmuş təbliğat valını o biri üzünə çevirəndə həmin üzdə heç nə yazılmadığını təmiz unudublar.**

**M.Məmmədov**

# *KADRLAR ÇOX ŞEYİ HƏLL EDİR*



**2018-ci ildən Möhtərəm Prezident çox böyük kadr islahatlarına başladı. Çox adam bu kadr islahatlarını öz bildiyi kimi yozurdu və ya başa düşmürdü. Çıxışlarında Möhtərəm Prezident qeyd edir ki, mən nəyi və nə vaxt başlamağı özüm bilirəm. Və bu kadr islahatlarını da Möhtərəm Prezident bircə özü bilirdi. Təbii ki, biz bilmirdik, amma heç demə, Ali Baş Komandan Qarabağın azadlığı uğrunda müharibəyə başlayacaqmış, ona görə də öz ətrafını təmizləyib, daha çox ümid bəslədiyi şəxslərə və gənclərə üstünlük verirmiş.**

Belə bir kadr islahatlarından bu gün ən çox danışılan Hikmət Hacıyevə göstərilən etimaddır ki, mətbuat bu barədə çox yazır.

Hamısı haqqında danışmaq istəmirik, hamısı uğurludu və yerindədi.

Ən vacib məsələlərdən biri Siyasi Partiyalarla İş şöbəsinə gətirilən və Prezidentin köməkçisi təyin edilən Ədalət Vəliyev idi. Bu şəxs Azərbaycanda mədəniyyət sahəsində göstərdiyi xidmətlərə görə çox tanınan və saf bir dövlət məmuru kimi qəbul edilirdi. Və artıq düz bir ildir ki, Ədalət Vəliyev bu vəzifədə çalışır. Və Möhtərəm Prezidentin daxili siyasətində ona tapşırılan vəzifəni layiqincə yerinə yetirir. Məhz onun xidmətidir ki, ölkədə gedən siyasi proseslərdə və Qarabağın azadlığı uğrunda gedən döyüşlərdə 50 partiya birgə bəyanat imzaladı və prezidentin yanında olduqlarını təsdiqlədilər. Eləcə də 51 partiya, Müsavat da həmin bəyanata imza atmasa da, Ədalət Vəliyevlə görüşdü və iqtidarın bugünki siyasətini dəstəklədiyini bildirdi.

Düzdür, AXCP görüşə getməsə də, amma bu gün görürük ki, AXCP də Qarabağ müharibəsində iqtidara dəstək verir.

Əgər hər bir dövlət məmuru prezidentə, onun siyasətinə belə ləyaqətlə qulluq eləsə, Məmməd Araz yazmış:

Bir daşın qulpundan yapışsa hərə,
Nə imiş bir kəndin şəhər olmağı.

**Arzu edirik ki, bütün dövlət məmurları hərəsi bir daşın qulpundan yapışsın və Ali Baş Komandan Şuşada müqəddəs bayrağımızı qaldırsın!**

# DTX: Döyüş zonasından video yayanlarla bağlı cinayət işi başlanıldı

**Ermənistan silahlı qüvvələrinin 2020-ci il sentyabrın 27-dən davam edən hərbi təxribatlarına qarşı Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müvəffəqiyyətlə apardığı əks-hücum əməliyyatları nəticəsində bir neçə rayon, eləcə də strateji əhəmiyyətli ərazilər işğaldan azad edilmişdir.**



Adalet.az Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) saytına istinadən xəbər verir ki, aidiyyəti dövlət orqanlarının həyata keçirdiyi dövlət sirrinin mühafizəsi tədbirlərinə zidd olaraq və müvafiq xəbərdarlıqlara baxmayaraq, döyüş əməliyyatları aparılan ərazilərdə bir sıra şəxslər tərəfindən mobil telefon aparatlarının texniki imkanlarından istifadə etməklə icazəsiz videoçəkilişlər edilmiş, Azərbaycan qoşunlarının strateji və əməliyyat planları, dislokasiyası və yerdəyişmələri, şəxsi heyəti, silah və hərbi texnikaları, digər döyüş təminatı, əməliyyat şəraiti barədə məlumatları əldə etməyə imkan verən müxtəlif videomateriallar yayılmışdır.

Qeyd olunan videogörüntülər düşmən ordusu tərəfindən Azərbaycan Respublikasının qoşun hissələrinin qüvvə və mövqeləri barədə informasiyanın əldə edilməsi, həmçinin kəşfiyyat-təxribat fəaliyyətinin həyata keçirilməsi məqsədləri üçün istifadə olunmuşdur.

Aşkar edilmiş faktlar üzrə Dövlət Təhlükəsizliyi Xidmətində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 284-cü (dövlət sirrini yayma) maddəsi ilə cinayət işi başlanılmış, hazırda həmin şəxslərin cinayət əməlləri ilə bağlı istintaq aparılır.

Bir daha vətəndaşlara fəal döyüş zonasından icazəsiz videoçəkilişlərin aparılmasının və yayılmasının cinayət məsuliyyətinə səbəb olduğu barədə xəbərdarlıq edilir, Azərbaycan əsgərinin həyatına təhlükə yaradan bütün davranışlardan çəkinməyə çağırırıq.

# "Türk ocaqları"ndan Azərbaycana dəstək

## Tərtər və Gəncəyə qardaş köməyi edildi

**Türkiyə "Türk ocaqları" Mərkəzi Qərargahının maddi dəstəyi ilə Qarabağ və ətraf bölgələrdə erməni terrorundan əziyyət çəkən, evləri dağıdılan, yaralanan insanlara kömək məqsədi ilə ərzaq yardımı edilib. Bu barədə "Şərq.az"a Azərbaycan "Türk ocağı"nın sədri Akif Aşırlı məlumat verib. Oktyabrın 31-də Tərtər və Gəncəyə səfər etdiklərini, vəziyyətlə yaxından tanış olduqlarını qeyd edən A.Aşırlı bu kampaniyanı qardaş yardımlaşması adlandırıb: "Azərbaycan və Türkiyənin ortaq tarixində qardaş yardımlaşmasının ən yaxşı örnəkləri var. Biz də bu örnəyi yaşatmağa çalışırıq".**

A.Aşırlı deyib ki, öncə bütün çətinliklərə sinə gərən, daim atəş altında olan Tərtərdə olduq, rayon icra hakimiyyəti başçısı Müstəqim Məmmədovla görüşdük, vəziyyətlə maraqlandıq.

Biz orda olduğumuz müddətdə də rayon ərazisi intensiv atəşə tutulurdu. Sonra icra hakimiyyəti nümayəndəsinin iştirakı ilə 80 ailəyə ərzaq bağlaması verildi.

Tərtərdən sonra növbəti dayanacağımız Gəncə oldu. Terrordan əziyyət çəkən insanlarla görüşdük, 40 ailəyə ərzaq yardımı edildi, valideynlərini itirmiş körpələrə də hədiyyələr verildi".

Akif Aşırlı deyib ki, bu qardaş yardımlaşmasının maddi tərəflərindən daha çox mənəvi



tərəfləri var: "Türkiyə dövləti, xalqı ən çətin anlarda Azərbaycanın yanında olub və bu gün də bu yenilməz münasibəti görürük. Türkiyə "Türk ocağı"nda birləşən, milli birliyi sağlam əsaslarla qoruyan ziyalılarımız Vətən müharibəsinin ilk günlərindən Azərbaycanın yanındadır".

Bu qardaş köməyinin, yardımlaşmasının tarixi ənənələrinə diqqət yönəldən A.Aşırlı deyib ki, 1918-ci ildə Türkiyənin Şərqi-Anadolu vilayətində erməni-rus terrorundan evini, yurdunu itirən qardaşlarımıza ilk dəstəyi də Azərbaycan edib.

Həmin vaxt Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti tərəfindən "Qardaş köməyi" günləri təşkil edilib, Qars, Ərzurum, İqdır, Otul, Kağızman bölgələrində insanlara yardımlar edilib, kimsəsiz uşaqlar Bakıya, Tiflisə, Şəkiyə yerləşdirilib.

**Bu gün Ermənistanın hərbi cinayətlərinin qurbanı olan insanlara "Türk ocağı"nın dəstəyini qardaş köməyinin davamı olduğunu bildirən A.Aşırlı qeyd edib ki, növbəti yardımlar da nəzərdə tutulub.**

# "Yaman nişangaha gəlir ha!.."



*"Hanı, bəs sən Arazboyunda şəhər salırdın? Nə oldu?.."*

*"Ermənistanın "Vətən" partiyasının könüllülərindən ibarət bir dəstə artıq Qarabağa gəlib".*

*Moderator.az xəbər verir ki, bu barədə işğalçı ölkənin "Hraparak" qəzeti yazıb.*

*Məlumata görə, dəstəyə Qarabağda müharibə başlamamışdan öncə Rusiyanın bəzi hakim dairələrinin Paşinyanın yerinə iqtidara gətirməyə çalışdığı deyilən Ermənistan milli təhlükəsizlik xidmətini keçmiş rəhbəri general Artur Vanetsyan özü komandirlik edir.*

*"A.Vanetsyan sürpriz bir hücum halında hamısının düşmənin hədəfinə çevrilə bilməməsi üçün əvvəlcədən könüllüləri bir neçə qrupa bölüb. Dəstə tam silahlanmış vəziyyətdədir və geyimdən qidaya qədər hər şeylə təmin edilib. Bütün könüllülər Azərbaycan ordusunun onların yerini müəyyən edə bilməmələri məqsədilə mobil telefonlarını Ermənistanda qoyub gəliblər"- erməni qəzeti belə yazır.*

*Xatırladaq ki, A.Vanetsyan 2019-cu ilin yanvarında MTX direkroru kimi Azərbaycanın işğal altındakı Arazboyu ərazilərinə gəlmiş və həmin torpaqların ermənilərlə məskunlaşdırılmasının, burada böyük bir şəhər salınmasının vacibliyini vurğulamışdı...*

*P.S. Hanı bəs sən Arazboyunda şəhər salırdın? Nə oldu?..*

*P.P.S. Tezliklə Azərbaycan ordusu digər terrorçu generallar kimi bunun da başını əzər. Yaman nişangaha gəlir, ha!..*

*Sultan Laçın*



Vüsalə Məmmədova

# İzah etməyə xəcalət çəkirəm...

**Azərbaycan əsgərinin alnımızdakı ləkəni qanı ilə yuduğu bir dönəmdə belə uzun izahata məcbur edənlər utanmaya bilərlər, mən izah etməli olduğum üçün xəcalət çəkirəm...**

**Bilirəm, əksəriyyət üçün qadına təcavüz torpağa təcavüzdən alçaldıcıdır. İkincinin daha ağır olduğunu dərk edəndə (çünki torpağa təcavüz millətin tarixinə, gələcəyinə, uşaqlı böyüklü, kişili-qadınlı hamıya təcavüz deməkdir və bu təcavüz davam etdikcə, içindəki əziklik duyğusu bir an belə səngimək bilmir) bu mərhələni geridə qoyacağıq. Amma hələ ki, qarşımızda belə bir problem var, izah etməyə məcburuq. Çünki kifayət qədər ciddi, ağlı başında bildiyimiz insanlar guya zarafat edirmişcəsinə "Anna Akopyanın dəstəsi Qarabağdan qayıdır" adı altında foto paylaşır... Ayıbdır! Rəzalətdir!**

**Bilin ki, hər dəfə siz şəhər mərkəzi gözləyəndə əvəzinə 4 kəndi işğaldan azad edən cəsur əsgər müqəddəs amal uğrunda savaşır. Siz facebookda şitləşib, səhifənizi aktivləşdirəsiniz, like yığasınız və ya olan-qalan hörmətinizi də itirəsiniz deyə yox!**

**Siz hamilə erməni qadınını təsəvvürünüzə gətirəndə fəxr edirsinizsə, biz hərbi cinayət törətməyən, ləyaqətli və cəsarətli əsgərimizlə fəxr edirik!**

**O əsgərin ki, soyuq səngərdə siz və övladlarınız burada başı dik gəzəsiniz deyə ovcunu nəfəsi ilə qızdırır... Daha əxlaqsız düşüncələri tirajlayasınız deyə yox!**

**O əsgərin ki, sizin əxlaqsız zarafatınız onun yolunu gözləyən qadına təhqirdir!**

**Əsgərin ləyaqəti, onu gözləyən qadının heysiyyəti vecinizə deyilsə, heç olmasa 20 yaşını tamamlamayan şəhidlərə hörmət edin. Yəni doğrudan sizin üçün müqəddəs olan heç nə yoxdur?**

**Hərbçinin qadına təcavüzü belə ürək açan, üz güldürən, fəxarət yaşadan haldırsa mən sizə erməni təcavüzünə məruz qalan qadınların sonradan neçəsinin ailə qurduğunu sadalayım... Eşitməyə hazırsınız?**

**Ayıbdır, çox ikrah doğuran mənzərədir! Bu davranışınız düşmənlə üz-üzə dayanan əsgərə də, yaşamaq hüququndan keçən şəhidə də, ən məhrəm duyğularına toxunduğunuz ailə üzvlərinə də həqarətdir!**

**Həqiqətən bir qadının hamilə buraxılmasını kişilik hesab edirsinizsə, onu da bilin ki, kişi, xalqının intiqamını qadından almaz! Bizim əsgər isə heç vaxt almaz! O namərd deyil! O cinayətkar deyil!**

**Əsgərin və ailəsinin yanında ola bilmirsinizsə, offline olun, bu daha asandır.**

**Qısası, öz hisslərinizə sahib çıxın. Kirli düşüncələrinizi əsgərin alın təriylə, qanı ilə yumağa cəhd etməyin!**

**Bizi utandırmayın...**

# Qalib sərkərdə

**Oktyabrın 17-də xalqa müraciətində Prezident İlham Əliyev elan etdi ki, rəşadətli Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndləri və Füzuli şəhəri işğaldan azad edilib. Bu xəbəri eşidəndə sevincdən gözlərim doldu, ağladım. Doğma rayonum - Füzulim erməni faşistlərindən azad edilib. Könlüm fərəhlə doldu. Əzəmətli Ərgünəş və Mənğələnata dağlarının zirvəsində üçrəngli bayrağımız dalğalanır. İxtiyar yaşımda bu qələbə sevincini yaşamaq mənim üçün böyük xoşbəxtlikdir.**

Xəyal məni lap uzaqlara - gənclik illərinə, kəndimizin, elimizin çal-çağırlı günlərinə aparır. Məktəb illəri yadıma düşür. Anam Güleyşənin atasız qalmış yeddi övladını çətinliklə böyüdüb boya-başa çatdırması, barlı, bəhərli, güllü, çiçəkli, səliqəli həyətimiz yadıma düşür. Hər il bahar fəslində arandan sərin yaylaqlara, Kəlbəcərin İstisuyuna getməyim yadıma düşür. Doğulduğum, boya-başa çatdığım Kürdmahmudlu kəndi, Köndələn çayı yadıma düşür. Yovşan ətirli Haramı düzü, Mahmud bulağı yadıma düşür. Hər gün yuxularımda gördüyüm doğma rayonumuz üçün burnumun ucu göynəyir. Nəvələrim hələ rayonumuzu, Qarabağı görməyib. Sevinirəm ki, nəvələrim də o doğma yerləri görəcək.

Erməni faşistləri Qarabağımızı, o cümlədən doğma Füzulimizi, yaşayış məskənlərimizi, tarixi mədəniyyət abidələrimizi yerlə-yeksan etdilər.

İyirmi yeddi il Qarabağsız qaldıq. Doğma yurdumuzdan, ev-eşiyimizdən perik düşdük. Erməni vandalları evlərimizi, qəbiristanlıqlarımızı, tarixi abidələrimizi viran etdi. Yüzlərlə ailə çadır şəhərciyində məskunlaşdı. Minlərlə yurddaşımız kimi, qardaşlarım, bacılarım, qaynatam, qaynanam da bu müjdəni - qələbə xəbərini eşitmədən yurd həsrəti, yurd təşnəsi və nisgililə dünyadan köçdülər. Ölkə prezidenti hər dəfə çıxışlarında qeyd edir ki, torpaqlarımız azad ediləcək və Ermənistanın otuz il müddətində viran qoyduğu o kəndlər, o şəhərlər dərhal yenidən bərpa ediləcək, köçkünlərimiz öz doğma ocağına qayıdacaq, o yerlərdə uşaq gülüşləri hər kəsi sevindirəcək.

İndi işğaldan azad edilmiş şəhər və kəndlərimizdə köhnə ocaq yerlərimiz yenidən tüstülənəcək. Yurd həsrətində olan doğma həmvətənlərim kimi mən də rayonumuzun azad edilməsini böyük sevinc və fərəh hissilə yaşadım. Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Ali Baş Komandanı, qəhrəman Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında rəşadətli ordumuz doğma torpaqlarımızı, kəndlərimizi, şəhərlərimizi erməni faşistlərindən azad edirlər. Şanlı ordumuzun əldə etdiyi qələbələr bir ana kimi məni ürəkdən qürurlandırır. Ali Baş Komandanın hər çıxışında qeyd etdiyi kimi: "Bizim işimiz haqq işidir. Azərbaycan ordusu hazırda öz torpaqları uğrunda döyüşür". Şanlı ordumuz Ali Baş Komandanın güclü siyasətinə, müdrikliyinə, qətiyyətinə, iradəsinə və əzmkarlığına güvənərək hər gün yeni-yeni qələbələr çalır, hər gün bizə qürur və fəxarət hissi yaşadır. Erməni işğalçıları mübariz və yenilməz ordumuzun şücaətindən qorxaraq döyüş sursatlarını, tanklarını və silahlarını səngərdə qoyaraq qaçırlar. Cəbhə boyu ordumuza cavab verə bilməyən qorxaq və məğlub ermənilər uğursuzluqlarının hayıfını şəhərlərimizi və dinc əhalimizi raket atəşinə tutmaqla alırlar.

İnanıram ki, şəhidlərimizin qanı yerdə qalmayacaq, müzəffər ordumuz bütün işğal edilmiş torpaqlarımızı təcavüzkar və terrorçu erməni vandallarından xilas edəcək. Ömrümün bu çağında arzum bütün Qarabağı azad görməkdir. Möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyev Azərbaycan tarixində yeni şanlı səhifələr yazan, xalqımızın qəlbində yer tutmuş qalib sərkərdə, milli qəhrəmandır. Onun adı tarixdə əbədi qalacaq.

**Qürur duyuram ki, yenilməz, mətin qalib sərkərdəmiz var. Allah Sizi qorusun, Ali Baş Komandan, əziz Prezidentim. Qürur duyuram, fəxr edirəm Sizinlə. Bütün xalqımız Sizə dayaqdır, Sizə güvənir. Qəlbən inanıram ki, bu Vətən müharibəsində Şanlı Ordumuz qalib gələcək. Ali Baş Komandanın rəhbərliyi altında rəşadətli ordumuz işğal edilmiş bütün torpaqlarımızda üçrəngli bayrağımızı qaldıracaq. Eşq olsun yenilməz Ali Baş Komandanımıza! Eşq olsun igid və mübariz Azərbaycan Ordusuna! Qələbə bizimdir! Qarabağ Azərbaycandır!**

**Tahirə Əliyeva,**
**Füzuli rayonu,**
**Kürdmahmudlu kəndi**

QƏZƏNFƏR PAŞAYEV

# QİSAS QİYAMƏTƏ QALMADI



*Mədəniyyət ocağımız Qarabağı itirdiyimiz otuz il ərzində bu günün həsrəti ilə yaşayan, dünyasını ürək ağrısı və nisgillə dəyişən böyük şəxsiyyətlərin ruhu bizimlədir. Onların əksəriyyəti ilə dostluq münasibətlərində olmuşam. Haqlarında məqalələr, bəziləri haqda vida sözü yazmışam. Dost itkisi, torpaq itkisi haqda yazmaq çox ağrılı-acılı olur.*

*Bu dəfə sevinc gətirən, nisgilimizə son qoyan tarixi hadisədən söz açıram.*

*Ruhunuz şad olsun! Unudulmaz Abbas müəllim, Bəxtiyar müəllim, Bəkir müəllim, Fuad müəllim, Kamal müəllim (Talıbzadə), Tofiq müəllim, Kamal müəllim (Hacıyev), Əzizə xanım (Cəfərzadə), Qasım müəllim, Yaşar müəllim, Ağamusa müəllim, Vasim müəllim, Fəttah müəllim, İmamverdi müəllim, Yavuz müəllim, Müseyib müəllim, Bəhram müəllim, Xəlil Rza, Qabil, Cabir Novruz, Hüseyn Kürdoğlu, Məmməd Araz, Sabir Əhmədli, Şahmar Əkbərzadə, Zəlimxan Yaqub, Vaqif Səmədoğlu, Ağa Laçınlı, Nahid müəllim, Əlibala müəllim, Zakir müəllim (Zeynalov), Bəhlul müəllim (Abdulla), tələbə yoldaşlarım: şair Mətləb Misir, prof. Fərman İsmayılov, sevimli tələbələrim, tanınmış alimlər Zeydulla Ağayev, Məlumat Nurəddinov, gözünüz aydın olsun, ruhunuz şad olsun!*

*Şah İsmayıl Xətayi və Nadir şah Əfşardan sonra, üç əsrə yaxın bir dövrdə torpaqlarımızın hissə-hissə itirilməsinə son qoyulur, mənliyimiz geri qaytarılır. Ən yaralı yerimiz, mədəniyyət ocağımız Qarabağ müharibə yolu ilə azad edilir.*

*Ordumuz erməniləri əzəli və əbədi torpaqlarımızdan qovur. Otuz ilə yaxındır ki, heç bir fayda verməyən çoxsaylı danışıqlar davam edirdi. Tez-tez deyirdilər: "Qarabağ düyününün hərb yolu ilə həlli yoxdur".*

*Hörmətli prezidentimiz bütün bu illər ərzində ölkəmizin iqtisadi cəhətdən inkişafına çalışdığı kimi, gecə-gündüz qüdrətli ordu quruculuğuna da rəhbərlik etmişdir. Prezidentimizin rəsmi yığıncaqlarda dediyi: "Biz qüdrətli ordu yaratmışıq" sözlərinə nəinki xaricdə, ölkə daxilində də şübhə ilə yanaşanlar olurdu.*

*Böyük Ermənistan xülyası ilə yaşayan mənfur qonşularımız isə havadarlarına və otuz ildə Dağlıq Qarabağda yaratdıqları üçqat istehkamlarına, tunellərinə, saysız-hesabsız ağır hərbi texnikalarına arxalanaraq bizə meydan oxuyurdular. İş o yerə çatmışdı ki, Ermənistanın baş naziri Paşinyan dövlət başçılarının zirvə toplantısında bəyan etmişdi: "Qarabağ Ermənistandır, nöqtə".*

*Prezidentimiz əminliklə demişdi: "Qarabağ Azərbaycandır!"*

*Prezidentimizin dediyi kimi də oldu.*

*Xoşbəxtəm ki, bu ahıl çağımda inanılmaz tarixi hadisənin şahidi oldum.*

*Azərbaycan döyüş taktikası ilə dünya tarixində şanlı səhifə yazdı.*

*Az bir vaxtda ən müasir silahlarla düşmənin hərbi texnikasını və canlı qüvvəsini məhv etdik.*

*Ermənilərin 300-dən artıq tankı, onlarla topu, raket qurğuları, mina atanları, S-300 müdafiə qurğuları, hərbi maşınları və s. sıradan çıxarıldı. Onların çoxsaylı tankları, topları, raket qurğuları, hərbi maşınları, hərbi sursatı və s. hərbi qənimət kimi ordumuz tərəfindən götürüldü.*

*Ali Baş Komandanımızın dediyi kimi, indi qənimət götürülmüş texnikadan ermənilərə qarşı döyüşdə istifadə edilir.*

*Ruhunuz şad olsun! Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonları, şəhər, qəsəbə və kəndləri işğaldan azad edilib. Hər gün yeni-yeni ərazilər azad edilir.*

*Prezidentimiz uzun illər əzab-əziyyətə, sıxıntılara, böyük güclərin təzyiqinə inanılmaz iradə ilə sinə gərdi və müharibənin gedişində qüdrətli sərkərdə və şəxsiyyət kimi dünya tarixinə düşmək hüququ qazandı, xalqımızın fəxrinə, tükənməz enerji mənbəyinə çevrildi.*

*Ordumuzun tarixə qızıl hərflərlə yazdığı şanlı səhifə onun adı ilə bağlıdır.*

*Ulu öndərimizin qəbri nurla dolsun! İnanıram ki, onun ruhu sevinc içərisindədir. Sevinir ki, arzularını özündən çox inandığı oğlu həqiqətə çevirdi, gerçəkləşdirdi.*

*Əzizlərim, şükürlər olsun ki, nisgilimizə son qoyuldu. Qarabağın düşmən torpağından tam azad olunmasına sayılı günlər qalıb.*

*Rahat uyuyun!*

*Əbədi qonşu olmağa məhkum olduğumuz qarı düşməndən nəinki Xocalının, xalqımıza qarşı törətdikləri bütün cinayətlərin qisasını aldıq. Bütün xalqımız sevinc içərisindədir. Qisas qiyamətə qalmadı.*

*Ali Baş Komandanın dediyi kimi, onlara elə bir dərs vermişik ki, bir də pis niyyətlə biz tərəfə baxmağa cürət etməyəcəklər.*

*Sizi heç vaxt unutmayan qardaşınız*

*2 noyabr 2020-ci il*



Şəhanə Müşfiq

# Bizim üçün millətin, dinin fərqi olmayıb

***Bəzən etiraz edirlər ki, "türk" sözü, "türk ordusu" ifadəsini işlətməyin, ordumuzda talış da var, ləzgi də, tat da, yəhudi də. Razıyam. Orduda yer alan, torpaqlarımız üçün vuruşan türkə də, talışa da, ləzgiyə də, tata da, yəhudiyə də, avara da, rusa da, kürdə də can qurban... Amma əzizlərim, unutmayın, erməni həmişə bizə "türk" deyib qırıb. Türkü də, qeyri-millətləri də. Hamımızın onlar üçün bir adı olub- "türk". Və onlar həmişə bu "türk" sözünü bizi alçaltmaq, aşağılamaq, söymək kimi istifadə ediblər. "Türk" deyərək bizi yazıq, məğlub kimi göstərməyə çalışıblar. Ona görə biz də indi düşmənin burnunu ovanlara onların öz dilində "türk" deyirik. Onlardan fərqli olaraq qürur mənbəyi kimi...***

***Azərbaycan həmişə çoxmillətli ölkə olub. İnanın, öz adıma heç zaman millət ayırmaq yadıma da düşməyib. Dostum olub ki, illər sonra xristian olduğunu bilmişəm, 7 ildir tanıdığım bir tanış qızın tat olduğunu o gün öyrənmişəm. Və bu, münasibətlərimizə zərrə təsir göstərməyib. Yəni, bizim üçün millətin, dinin fərqi olmayıb. Hamımız azərbaycanlıyıq, hamımız Azərbaycanıq! Xahiş edirəm, bir olmalı olduğumuz zamanda öz içimizdə ayrı-seçkilik salmayın. Təkrar deyirəm, bu vətən üçün canını verməyə hazır olan hər kəsin canına, qanına, qeyrətinə qurban!***

## *Din xadimi Orduya maddi yardım etdi*



**Silahlı Qüvvələrə Yardım Fonduna ianələr daxil olmaqdadır. Dövlət qurumları, özəl müəssisələr və ayrı-ayrı şəxslər işğalçı üzərində Qələbəmiz naminə Ordumuza maddi dəstək göstərirlər.**

Qafqaz Müsəlmanları İdarəsi Qazılar Şurasının üzvü, Bibiheybət məscidinin imamı Hacı Rahib Babayev Silahlı Qüvvələrə Yardım Fonduna iki min manat vəsait köçürüb. Din xadimi əməkdaşımızla söhbətində bildirib ki, bu gün hər bir Azərbaycan vətəndaşının qəlbi ön cəhbədə vuruşan əsgər və zabitlərimizlə bir döyünür: "Ali Baş Komandanımızın rəhbərliyi altında Müzəffər Ordumuz şəhər və kəndlərimizi erməni işğalçılarından azad edir. Əsgər və zabitlərimizin bu rəşadəti xalqımızı yenidən birləşdirdi, hər kəs maddi və mənəvi kömək göstərməklə ön cəbhədə igidlik nümayiş etdirən insanlara dayaq durur. Qafqaz Müsəlmanları İdarəsinin təşəbbüsünə qoşularaq din xadimi kimi əmək haqqımın bir hissəsini Silahlı Qüvvələrə Yardım Fonduna köçürmüşdüm, eyni zamanda imkanlı dostlarımla birgə ön cəbhəyə ərzaq yardımı göndərmişdim. Bu gün isə şəxsi vəsaitimdən Ordumuza maddi yardım etmək qərarına gəldim. Allah Azərbaycanı, Ali Baş Komandanımızı, Rəşadətli Ordumuzu qorusun. Qələbə günü çox yaxındadır inşallah. Qarabağ Azərbaycandır!"

# ŞUŞAYA KİM BAYRAQ SANCSA...

**... İşğal altında olan hər rayonumuzu, hər şəhərimizi, hər qəsəbəmizi və hər yaşayış məntəqəmizi Azərbaycan Əsgəri, Azərbaycan Ordusu azad edəndə onun sevincini bütün xalqımız yaşayır. İnsan çox sevincli anlar yaşaya bilər. Amma mənə elə gəlir ki, işğal altında olan torpağımızın azad edilməsindən böyük sevinc yoxdur. Bu xəbərə 10 milyon insan sevinir. Dərd bir yerdə çəkiləndə yüngülləşir. Sevinc isə paylananda daha da çoxalır. Və artıq biz işğalda olan torpaqlarımızı azad etdikcə sevincimiz daha da artır. Çünki bu vətənin, bu ölkənin itirilmiş ərazisi yenidən özünə qaytarılır və yenidən böyük Azərbaycan yaranır.**

Füzuli də, Hadrut da, Zəngilan da, Qubadlı da, Cəbrayıl da erməni işğalından azad olunarkən orda Azərbaycan bayrağı dalğalanıb. Mən bilmirəm Füzuli şəhərinə, Zəngilan şəhərinə, Qubadlı şəhərinə, Cəbrayıl şəhərinə və Hadrut qəsəbəsinə Azərbaycan bayrağını kim sancıb? Kim sancıbsa, o, bu Vətənin, bu xalqın ən böyük oğludur. Və bir də bu xalqın, bu Vətənin ən böyük oğlu torpaqlarımızı azad edərkən şəhid olan, yaralanan Azərbaycan Əsgəridir! O Azərbaycan Əsgəri ki, bir ay müddətində 27 il gözlədiyimiz sevinci bizə bəxş edib... O Azərbaycan Əsgəri ki, Vətənin itirilmiş torpaqları uğrunda ölümün gözünə dik baxıb... O Azərbaycan Əsgəri ki, azad etdiyi şəhərlərdə, kəndlərdə və qəsəbələrdə Azərbaycan Bayrağının dalğalandırıb... Bizim qürur və sevinc yerimiz olan Bayrağımızı daha da yüksəkliklərə qaldırıb. Bu, Azərbaycan Əsgəridi! Vətənini və xalqını canından çox istəyir. Vətənini və xalqını canından çox istəyən Azərbaycan əsgərini 10 milyonluq xalq da gözünün üstündə saxlayır, onu sevir, əzizləyir...

Sözümün canı ondan ibarətdir ki, Vətən torpağı yalnız və yalnız öz şəhidlərilə erməni işğalından azad edilə bilər. Yəni o torpağa şəhid qanı axmasa, şəhid qanı dammasa heç vaxt yağı düşmən gözəl Qarabağı qoyub çıxan deyil. Bəli, biz Böyük Vətən Savaşında şəhid verə-verə 200-dən çox yaşayış məntəqəsini, 4 şəhərimizi, 3 qəsəbəmizi işğaldan azad etmişik. Qanı torpağımıza qarışan, şəhid və yaralı əsgərlərimizin gücü və qüvvəsi hesabına biz qısa zaman kəsiyində erməni işğalından bu qədər torpaqlarımızı xilas edə bilmişik.




***Hər bir şəhidin torpağa qarışan qanı bu vətəni bizə daha da müqəddəsləşdirir, daha da sevdirir. Çünki şəhid qanı ilə suvarılan torpaqda çiçək bitir, gül boylanır, yasəmən görünür. O şəhid qanları lalələr kimi, qızılgül kimi bu Vətənimizə, bu ölkəmizə gözəl bir ətir gətirir, qoxu verir. Və biz şəhid qanı ilə suvarılmış torpaqlarımızın hər qarışını dizimizi qoyub öpməliyik. Ona görə öpməliyik ki, işğal altından azad olunmuş torpaqlar o şəhidlərin qanıyla yenidən bizə qovuşub...***

... Elə bil yadımdan çıxmışdı. Axı azad olunan şəhərlərimizə, kəndlərimizə və qəsəbələrimizə bayraq sancan igid Azərbaycan Əsgərindən söz açırdıq. Dövlət onsuz da hər bir şəhidinin, hər bir əsgərinin qədrini bilir. Amma bizi bir məsələ daha çox düşündürür. Çünki bizim ölkədə nə qədər desən pullu və varlı adamlar var. Bax, həmin pullu və varlı adamlar arayıb-axtarmalı, Azərbaycan Bayrağını işğaldan azad olunan şəhərlərimizə, qəsəbələrimizə və yaşayış məntəqələrimzə sancan Azərbaycan Əsgərini, daha doğrusu, əsgərlərimizi mükafatlandırmalıdılar. Bu mükafat mənzil də ola bilər, maşın da ola bilər, pul da ola bilər.

... Heç Azərbaycan Əsgərləri bayrağımızı azad olunan şəhərlərimizə, kəndlərimizə sancarkən bu barədə qətiyyən düşünmürlər. Bu barədə varlı və imkanlı adamlarımız düşünməlidilər.

Kimi bu Vətənə Şəhid olmaqla xidmət edir, kimi döyüşməklə, kimi də başqa vasitələrlə. Qoy pullu və imkanlı adamlar da Böyük Vətən Savaşında belə bir xidmət yolu seçsinlər.

***... Onlar bayaq dediyimiz kimi, arasınlar, axtarsınlar, bayrağımızı işğaldan azad olunmuş zirvələrə sancan igidlərimizi mükafatlandırsınlar. Cəbrayıla, Füzuliyə, Zəngilana, Qubadlıya, Hadruta bayraq sancan Azərbaycan Əsgərini sevindirsinlər. Hələ bizim bayraq sancılası neçə-neçə şəhərimiz, qəsəbəmiz, yaşayış məntəqələrimiz var... hələ bizim bayraq sancılası Laçınımız durur... Kəlbəcərimiz var... Şuşamız durur... Onlara bayraq sancan oğulları bu insanlar çox böyük səbirsizliklə gözləyir. Şuşa bizim Məkkəmizdir, and yerimizdir! Bu bayrağı Şuşaya kim sancsa, mən öz bir aylıq əmək haqqımı həmin əsgərin hesabına köçürəcəm. Varlı adamlarımız isə Kəlbəcərə, Laçına, Şuşaya Azərbaycan Bayrağını sancanlara daha böyük mükafat verə bilərlər. Hər halda, tezliklə biz Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyevin və qüdrətli Ordumuzun gücüylə bu sevinci yaşayacağıq.***

Bəs onda ay imkanlı və varlı adamlar, nəyi gözləyirsiniz? Tez hazırlaşın və işğaldan azad olunmuş torpaqlarımıza Azərbaycan Bayrağını sancanları tapıb mükafatlandırın. Üstəlik də bir az əlinizi açın, Şuşaya, Laçına, Kəlbəcərə bayraq taxacaq igid Azərbaycan Əsgərini sevindirin! Çünki o əsgərlər, o oğullar sıradan bir gənclər deyillər. Onlar ölümün gözünə dik baxan və ondan qorxmayan Şuşamızı, Laçınımızı və Kəlbəcərimizi azad edəcək Azərbaycan oğullarıdır.

**Bu addımı atmaqla hər bir imkanlı insan həm də bu Vətənə, bu Xalqa, bu Dövlətə xidmət etmiş olacaq. On milyonluq əhali isə QƏLƏBƏ xəbərini böyük səbirsizliklə gözləyir. Bax, onda Şuşaya, Laçına, Kəlbəcərə Azərbaycan Bayrağı sancılacaq. O böyük və o qüdrətli bayrağımız dalğalandıqca biz 27 illik həsrətdən sonra kövrələcək və sevincdən gözlərimiz dolacaq. Təki gözlərimiz sevincdən dolsun!..**

**Faiq QİSMƏTOĞLU**

## *ÜST: Ötən həftə koronavirusa rekord sayda yoluxma qeydə alınıb*



**Ötən həftə ərzində dünyada yeni növ koronavirusa (COVİD-19) rekord sayda yoluxma halı qeydə alınıb.**

**Ümumdünya Səhiyyə Nazirliyinin yaydığı məlumata görə, ötən həftə ərzində yeni koronavirus 3,3 milyon nəfər yoluxub. Məlumata əsasən, yoluxma hallarında artım əsasən Avropa regionunda müşahidə edilib. Bundan əlavə dünya üzrə koronavirusdan ölüm hallarında da artım qeydə alınıb. Qeyd edək ki, hazırkı dövrədək dünyada yeni növ koronavirusa 47 milyon nəfər yoluxub, onlardan 34 milyon nəfəri sağalıb, 1,2 milyon nəfəri isə vəfat edib.**

## *ABŞ rəsmən geri çəkildi*

**Amerika Birləşmiş Ştatları Paris İqlim Müqaviləsindən rəsmi şəkildə çıxıb.**

**Prezident Donald Trampın 2017-ci ildə elan etdiyi çəkilmə qərarı bu gün qüvvəyə minib. Beləliklə, ABŞ müqavilədən çıxan ilk ölkə olub. Dünya Qaynaqları İnstitutunun Beynəlxalq İqlim Təşəbbüsləri direktoru Devid Vaskov "Paris müqaviləsindən çıxmaq üzüyuxarı hərəkət edən eskalatordan aşağı enməyə çalışmaq kimidir" deyib. 2015-ci ilin dekabrında 21-ci BMT İqlim Dəyişikliyi Tərəflər Konfransında (COP21) təsdiqlənən müqavilə 190-dan çox ölkə tərəfindən imzalanıb.**

**MEHRİBAN**



*SADIQ MURTUZAYEV*

# Ağdam xatirələri

**ƏZİZİM AQİL müəllim!**

**Keçən il Ağdam xatirələri yazmaq barədə təklifinizdən sonra əlimə qələm alıb düşünməyə başladım və az sonra deyəcəklərimin təvazökarlıqdan uzaq olacağını sanıb qələmi yerə qoydum. Lakin bu yaxınlarda televiziyada Ağdamın o dövrünə və sizin də bir çıxışınızda keçən əsrin 80-ci illərində bu rayonda aparılan böyük quruculuq işlərindən bəhs etməyiniz məni bəzi xatirələri qeyd etmək qərarına gətirdi.**

Mətləbə keçməmişdən əvvəl yaddaşımda qövr eləyən kiçik bir ricətə çıxmağı vacib bildim. Belə ki, hər dəfə sizin adınız gələrkən, üzünüzü görərkən mütəfəkkir, ölməz şairimiz Məmməd Araz yada düşür. Keçən əsrin 70-ci illərində, şair Nəbi Xəzrinin respublika Ali Sovetinə deputatlığa namizədin vəkili kimi bir həftə Şəkinin qonağı olmuş, onun müdrik söhbətlərini dinləmək mənə nəsib olmuşdur. Onun bu müdrikliyinə dəlalət edən iki faktı qeyd etmək ürəyimdən keçdi.

***Nəbi Xəzrinin Şəkinin ən böyük kəndi olan Baş Göynük kəndində seçicilərlə görüşü zamanı, onların ilk xahişi hər il sel gələrkən Şin çayının yatağında yerləşən kəndlərinə ciddi ziyan vurduğunu və bunun qarşısını almaq üçün 11 km-lik bəndə ehtiyac olduğunu nəzərə alıb bu problemin həllinə kömək etmək oldu.***

***Nəbi Xəzri cavab verdi ki, "baş üstə, mən Sadıq müəllimlə də məsləhətləşib bu məsələnin həllinə çalışaram".***

***Məmməd Araz əyilib qulağıma pıçıldadı ki, "yazıq Nəbi, 20 ildir bağına hasar çəkə bilmir, bunlara 11 km-lik bənd çəkməyi öhdəsinə götürür.***

***Bir dəfə də mən onun qonşusu olan qızımgildən çıxarkən 15-20 metr öndə onun irəlilədiyini görübucadan dedim: -"Dünya düzəlmir ki, düzəlmir baba". Şair geri baxmadan (xəstəliyi başını döndərməyə imkan vermirdi) əlini yuxarı qaldıraraq dedi: "Bu səs Sadıq müəllimin səsinə oxşayır". Onun Şəkidə məni eşitməyindən 20 ildən çox keçmişdi.***

İndi isə mətləbə keçirəm.

Əvvəla nəzərə alın ki, mən Ağdama çox zəngin təcrübə illərimdən keçib gəlmişdim. Buna qədər Zaqatalada, Abşeronda, Şəkidə 20 ildən çox həmin vəzifədə çalışmış, Mərkəzi Komitə adlanan o dövrün ən müqdədir təşkilatında ideologiya şöbəsinə rəhbərlik etmişdim. Odur ki, həmin illərin təcrübəsindən ötəri də olsa bəhs etmək yerinə düşər.

## *Keçən əsrin 50-ci illərinin sonunda*

***o dövrün ən məşhur raykom katiblərindən sayılan Sosialist Əməyi Qəhrəmanı Rüstəm Səfərəliyevlə birgə işləyib (raykomda şöbə müdiri və ikinci katib) onun zəngin rəhbərlik təcrübəsindən bəhrələnmişdim.***

Onu Zaqatalada əvəz edəndən heç iki il keçməmiş SSRİ Ali Sovetinə deputat seçilmiş, hələ heç bir medalım olmadığı halda o dövrün ən yüksək təltifi olan Lenin ordeni ilə təltif olunmuşdum. Bunlar mənim təşəbbüskar, yaradıcı fəaliyyətimə verilən ən yüksək qiymət idi. Bunu da əlavə edim ki, həmin çağırışda Azərbaycandan SSRİ deputatı seçilən yeganə birinci katib mən idim.

Sonra Abşeron rayonuna rəhbərliyə göndərilərkən bu yeni yaradılan rayonun qarşısında Bakı və Sumqayıt şəhərlərini təzə südlə, tərəvəzlə, habelə çox nadir ərzaq məhsulları (zeytun, zəfəran, əncir və digər subtropik meyvələrlə) təmin etmək vəzifəsi qoyulmuşdu. Bu rayon o zaman Xızı, Siyəzən və Şabran rayonlarını da özündə birləşdirirdi.

Mən bu vəzifənin də öhdəsindən ləyaqətlə gəlmiş, rayonu süd və ət istehsalının həcminə görə respublikada birinci yerə çıxarmışdım. Fəaliyyətimə verilən qiymət yenə çox yüksək idi. İkinci Lenin ordeni ilə təltif olunmuşdum.

***On ilə qədər bu rayonda işlədikdən sonra məni o zaman kənd təsərrüfatı çox bərbad olub bütün göstəricilərinə görə rayonlar arasında axırıncı yerdə olan Şəki rayonuna rəhbərliyə göndərildim. Qısa zamanda rayon bütün göstəriciləri ilə respublikada ilk yerlərdən birini tutdu.***

## *Respublikada kolxoz və sovxozların*

kooperasiyası əsasında ilk istehsalat birlikləri, sənaye əsaslı kənd təsərrüfat kompleksləri yaradıldı və bu sahədəki böyük nailiyyətlərə görə Ulu öndər Heydər Əliyev cənabları Şəkidə respublika seminar müşavirəsi keçirdi. Bu müşavirədə respublikanın bütün rayonlarından rəhbərlər, kolxoz sədrləri və sovxoz direktorları, mütəxəssislər dəvət olunmuşdu.

Heydər Əliyev seminarı bu sözlərlə başa vurdu: "Şəkililər Sadıq Murtuzayevin rəhbərliyi altında kənd təsərrüfatına rəhbərlik sahəsində köhnə ənənələri cəsarətlə aradan qaldıraraq yeni ənənələr yaratmış və böyük uğurlar qazanmışlar".

Bu cür seminarlar sonralar Zaqafkaziya respublikaları və ittifaq səviyyəsində keçirilmişdir. Bundan sonra Ağdama dəyişilməyim mənim üçün yeni sınaq meydanı idi. Beləki, Ağdam o zaman idarə olunmasına görə çox mürəkkəb rayonlardan hesab olunurdu. Mürəkkəblik həmin rayonun təsərrüfat sahələrilə çox sahəli, həm də ağdamlıların özünəməxsus xarakterə malik olmasında idi. Ağdamlarının mürəkkəbliyi həm onların ötkəmliyində, həm də fədakarlığında idi.

***Mən kənd təsərrüfatında çox tezliklə Şəki rayonunda əldə edilmiş idarəetmə üsullarını bu rayona köçürə bildim. İlkin olaraq təsərrüfat rəhbərlərinin Şəkiyə ekskursiyasını təşkil edərək hər şeyi əyani olaraq göstərdim.***

Rayonda yeni-yeni istehsalat qurumları, sənaye əsaslı komplekslər yaradıldı və bu göstəriciləri ilə burada da respublika, Zaqafkaziya və ölkə üzrə təcrübə mübadiləsi, seminar müşavirələri keçirildi.

Ağdamlılarla işə gəldikdə çox mürəkkəb bir vəziyyətlə üzləşmişdim. Yuxarıda dediyim ötkəmlik əsasında rayonda qruplaşmalar, ciddi ziddiyyətlər, qarşıdurmalar mövcud idi. Çoxsaylı belə qrupların hər birinin başında rayonun rəhbərlərindən biri dayanırdı. Bircə faktı qeyd edim ki, məndən sonra rayonun ikinciləri hesab olunan rayon icraiyyə komitəsinin sədi ilə ikinci katib 2 ilə yaxın idi ki, biri-biri ilə danışmırdılar. Mən rayon fəallarının çox geniş bir yığıncağını çağırıb məsələni çox kəskin qoydum.

Hətta bu iki şəxsin timsalında qeyd etdim ki, belə adamlar nəinki rəhbər vəzifədə, hətta partiya sıralarında qala bilməzlər.

***Yığıncaq mənim sözlərimi alqışlarla qarşıladı, hamını barışdırdıq və məsələ qətiyyətlə belə qoyuldu ki, kimsə bundan sonra belə hallara yol verərsə qəti tədbirlər görüləcək. Bu əsasda rayonda insanlar arasında münasibətlər yoluna düşdü və ağdamlıların dediyim fədakarlıqlarından istifadə edibaşağıda qeyd edəcəyim yeni-yeni təşəbbüslərə əl qoyduq.***

İndi isə yenilik olan həmin təşəbbüslərdən qısaca bəhs edəcəyəm.

## *Ticarət mərkəzi*

Bu mərkəz o zaman respublikada demək olar ki, ilk belə müəssisə idi. Bununla əlaqədar bir maraqlı epizodu xatırlayıram. Mənim institut dosrlarımdan olub, sonra da institutun adlı-sanlı müəllimlərindən olan Kamal Qəhrəmanov bir gün çox həyəcanla yanıma gəldi. O, Şuşalı idi və hər il ailəsi ilə Şuşaya istirahətə gedirdi. Ağdam bazarı o zaman bütün ətraf rayonlar üçün əsas təminat yeri hesab olunurdu. Kamal çox gec evlənmişdi.Bazarda bir nəfər ona yaxınlaşıb deyir ki, yaxşı kürtüm vür, yanında cücələri ilə. Azyaşlı qızları yalvardılar ki, al, biz cücələrə baxarıq.

Kamal müəllim qızları ilə həmin adamın arxasına düşüb bir xeyli getdikdən sonra bir dalana girirlər və ağdamlı çantanı açaraq bir neçə tapanca və güllələr göstərib deyir ki, indi hansını istəyirsən seç.

Kamal müəllim "kürt" satanın yanından qızlarını da götürüb mənim yanıma qaçır ki, bəs başıma belə iş gəlib.

Mən Ağdamda fəaliyyətə başlayarkən belə qərara gəlmişdim ki, Ağdam bazarı ətrafında bir ticarət mərkəzi tikdirib orada alver edənləri bu mərkəzdə toplayım. Kamal müəllimin başına gələn əhvalat mənim fikrimi sürətləndirdivə nəhəng bir ticarət mərkəzi inşa edildi (deyəsən 250-ə qədər köşkü var idi).

## *Ağdam çörək muzeyi*

Həmin verilişdə Ağdam çörək muzeyini göstərdilər. Dünyada ikinci, SSRİ-də birinci muzey idi. Bunun da maraqlı bir tarixi var idi. Bir gün Ağdamın mərkəzi küçələrindən keçərkən böyük, lakin xarabaya çevrilmiş bir bina gördüm. Sürücüdən bunun nə olduğunu soruşduqda məlumat verdi ki, burada mexaniki dəyirman olub. İkinci dünya müharibəsi dövrü bu yeganə dəyirman idi və bütün Ağdama xidmət edirdi. İndi ona müqəddəs bir bina kimi baxdıqlarından toxunmurlar. Elə bu zaman onu çörək muzeyinə çevirmək fikrinə düşdüm və dərhal da işə başladım. Ağdamın çox səriştəli və fədakar memarı Firdousini yanıma çağırıb (Allah ona rəhmət eləsin) müvafiq göstəriş verdim və qısa müddətdə muzeyin eskizini mənə təqdim etdi.

***Ağdamda fəaliyyət göstərən tikinti təşkilatlarının rəhəbərlərini toplayıb hər birinə müvafiq tapşırıq verdim. Bina qısa müddətdə bərpa olundu və köməkçi binalar da əlavə edildi. Vaxtilə bu dəyirmanı işlədən Astan kişi öz vəzifəsinə qayıtdı. Beləcə çörəklə və dəyirmanla bağlı olan çoxlu eksponatlar toplandı. Müxtəlif ölkələrdən çörək nümunələri gətirildi.Özbəkistanın Səmərqənd şəhərində vaxtilə, hələ Şəkidə işləyərkən gördüyüm və 200-ə qədər çörək nümunəsi satılan çörək bazarına nümayəndələr, o cümlədən Əbülfəz Bərəkət təxəllüsü ilə tanınan məşhur alim Əbülfəz Qasımovun rəhbərliyi ilə nümayəndə heyətini göndərib çoxsaylı nümunələr gətirdik.***

Məşhur seleksiyaçı alim akademik İmam Mustafayev, tədarük naziri İnqilab Şəmiyev muzeyin zənginləşməsində xüsusi fəallıq göstərdilər. "İzvestiya" qəzetində muzey haqqında qısa məlumatı oxuyan leninqradlı Kanayevadan məktub aldıq ki, Leninqradın blokadasından saxlamış çörək nümunəsilə Ağdama gəlmək istəyir. Onu dərhal dəvət etdik. O, Leninqradda gündəlik norma olan 150qr-lıq çörəyi ölüm döşəyində acından can verən nəvəsinə də verməyib gələcəkdə çörək muzeyi yaradılarsaora vermək üçün saxladığı kömürləşmiş çörəyi gətirib gəldi. Onu çox sevinclə qarşıladıq və bir həftə ağdamlıların qonağı oldu.

Məlum oldu ki, belə bir muzey bizdən bir az əvvəl Almaniyanın Ulm şəhərində yaranıb. Muzeyə ekskursiya edənlərin sayı-hesabı yox idi. Ən dəhşətlisi o oldu ki, mənfur qonşularımız ilk qrad bombasını bu muzeyə atdılar. Sonralar ağdamlı görkəmli publisist -yazıçı Tofiq Vüqar həmin muzey haqqında xüsusi kitab yazdı və dünyanın bir çox dillərində çap olundu.

## *Abdal-Gülablı sanatoriyasının*

***yaradılmasının da xüsusi tarixi vardır. Bir gün Şuşanın birinci katibindən bir məktub aldıq. Məktub bütün rayonlara göndərilmişdi. Yazırdı ki, vilayətin ehtiyaclarını nəzərə alaraq Şuşanın pioner düşərgəsinə kənar rayonlardan uşaq qəbul edilməyəcək. Mən Mərkəzi Komitəyə bunu bildirdikdə çox təəccüblə qarşılayıb dedilər ki, səhər adam göndərib onun və ona bu göstərişi verən Vilayət Partiya Komitəsinin birinci katibi Gevorqovun dərsini verərik.***

Səhər həqiqətən də Nazirlər Sovetinin sədr müavini səviyyəsində olan adam gəlib məktubla tanış oldu və qətiyyətlə söz verdi ki, gedib hər ikisinin dərsini verəcək. Fəqət bu məlumatla qayıtdı ki, Sadıq müəllim, düz deyirlərmiş, düşərgə doğrudan da vilayətin ehtiyaclarını belə ödəmir. Beləliklə respublika tabeliyində olan Şuşa şəhərinə müvafiq respublika təşkilatları tərəfindən tikilmiş pioner düşərgələrindən Bakı və bütün respublika rayonları məhrum edildi.

Və elə bu olay Abdal-Gülablı və həm də Şelli sanatoriyalarının yaradılmasına səbəb oldu. Mən rayon rəhbərlərini, o cümlədən kolxoz sədrləri və sovxoz direktorlarını toplayıb məsələ qoydum ki, axı Ağdamın elə guşələri vardır ki, Şuşadan heç də geri qalmaz. Niyə biz istirahət üçün müvafiq şərait yaratmayaq. Ağdam rayon icraiyyə komitəsinin sədri A.Quliyev məlumat verdi ki, məsələn, bizim Damcı bulağımız var ki, Şuşanın məşhur istirahət mərkəzi olan İsa bulağından geri qalmır.

Mən dərhal yığıncağı bağlayıb ona dedim ki, gedək Damcı bulağına baxaq. Onun maşınında nəvələrimin ilki olan Anarı da özümlə götürüb yola düşdük. Abdal kəndini keçib hər tərəfi qalın meşələrlə əhatəyə alınmış Nur dərəsinin ətrafında dağ yoluna çıxıb bütün meşəni gəzdik. Lakin Aydın Quliyevin gizlədə bilmədiyi pərişanlığını görüb onun sürücüsü İdrisə göstəriş verdim ki, maşını qaytar, Aydın müəllim Damcı bulağının yerini dəqiqləşdirdikdən sonra bir daha gələrik. Dərəyə düşüb qalxarkən çox dəhşətli bir vəziyyətlə üzləşdik.

## *Çox sıldırımlı*

***bir yoxuşdan qalxarkən Qaz-69 maşınının motoru qəflətən söndü. İdris düşüb kapotu açarkən maşın dal-dalı getməyə başladı. Əgər İdris cəld tərpənib maşının əl tormozunu çəkməsəydi, hamımız uçuruma düşüb qərq olacaqdıq. Mən özümü itirib nəvəmi qucaqlamışdım, güya bununla onu xilas edəcəkdim.***

Çox əsəbi vəziyyətlə dağı keçib Nur dərəsinə enərkən bir neçə qadının parçla səhənglərə su doldurduğunu görüb maşını onlara tərəf sürdürdüm. A.Quliyevə "bəlkə budur Damcı bulağı" sualını verərkən dedi ki, yox, Damcı bulağımeşənin içərisindədir. Abdaldan bələdçi götürüb Damcı bulağına getdik. Bir vələs ağacının uçurumdan sallanmış köklərindən sızılmasından əmələ gələn bataqlıqdabir neçə qara-malın yatdığını görüb dəhşətə gəldim. Maşını yenidən qadınların su götürdüyü çalaya sürdürdüm. Onlardan aldığım məlumat məni sevindirdi. Demə vaxtı ilə bu dərədə bir kəhriz olmuş və uzun müddət arıtlanmadığından batmışdı. Elə oradanca suvarma sistemlərinin idarəsinin rəisi Əfqan Qasımova zəng edib buraya çağırdım. O gələnə qədər Nur dərəsi ilə geniş tanış oldum və qərara gəldim ki, bax burada əsl düşərgə və hətta sanatoriya yaratmaq olar. Əfqan Qasımov gəlib çıxdı və xəbər verdi ki, bu kəhrizlərin sayi 112 olub və doxsan faizi yenə də arıtlanmadığından batıblar. Mən ona göstəriş verdim ki, digərləri ilə sonra məşğul olarıq, hələlik bunu təcili bərpa etməlisən. O, Ağdamda bir nəfər də olsa kənkan (kəhriz təmizləyən) tapmaq mümkün deyil cavabını verdi. Mən onun potensialına yaxşı bələd olduğumdan qətiyyətlə tələb etdim ki, bu artıq sənin qayğındır, get İrandan kənkan gətir və kəhriz ən çoxu ay yarımda bərpa olunmalıdır. Bunu da xatırladım ki, vaxtilə Qırğızıstanda olarkən onlara məxsus keçə çadırlar gətirib Şəkidə indi Marxal adlanan məşhur istirahət bazasında qurdurmuşduq. Lakin o zaman nümayəndə heyətinin başçısı kimi məşhur İssıkgöl sahilində Çingiz Aytmatovla görüşərkən onun köməyilə bir neçə belə çadır ala bilmişdim. Bunların hər birində 20-dən şox pioner çarpayısı yerləşdirmək mümkün idi. Sonra elə bu bazada Şəki ipək kombinatına məxsus və indi də çoxmərtəbəli binaları olan sanatoriya - istirahət bazası yaradılmışdı.

Nur dərəsi bunun üçün çox münasib idi.

***Mən Çingiz Aytmatovun o zamankı çətinliyini nəzərə alıb yenidən çadır üçün ona müraciət etməyə üzüm gəlmədi. Yaxın dostu Bəxtiyar Vahabzadədən ona zəng vurmağı xahiş etdim. O da "xətrini məndən də çox istəyir"- deyərəkŞahmar Ələkbərzadəni onun yanına göndərməyi məsləhət gördü. Şahmar dərhal razılaşdı və bir neçə gündən sonra Qırğızıstandan şad xəbərlə qayıtdı.***

**(ardı növbəti sayımızda)**

---

**Elgün Gəncimsoy**

# "Oğulsansa sür Şuşaya"



*Suyu iştahla qurtuldadıb, sonra qabı səliqəylə idarə etdiyi maşına qoyur. İndicə içdiyi su çənəsindən süzülür. Üzü tüklənib, elə qəşəng yaraşır ki saqqal cəngavərimizə...*

*- Nə əcəb üzünü qırxmırsan?*

*- Qaqaş, bığ saxlayacam, ona görə qırxmıram. Uşaqlarla sözləşmişik ki Şuşada hamımızın bığı olsun, - deyir və tez-tez hərəkət edib baş leytenanta məruzə edir. Kənarda qalıb gözlədim. Xeyli söhbət elədilər. Bir-iki nəfərlə zarafat edib bərkdən gülə-gülə mənə tərəf gəldi.*

*Orta boyludur. Tökmə bədəni, sarıya çalan düz saçı, bir də çox maraqlı gülüşü var. Paltarı çox çirkli görünsə də onu elə səliqəli yığıb yığışdırıb ki, zalım oğlu elə bil brend kostyum geyib. Əlin çiynimə qoyub:*

*- Həəə... qaqaş, de görüm şəhərdə vəziyyət necədir? -dedi. - Şəhərdən gəlmirəm, müharibə başlamazdan iki gün əvvəldən mən də cəbhədəyəm, - dedim.*

*- Ala, atamın qəbriyçün məndə şəhərdən çıxa bilmirdim. Amma indi neyləsələr qayidası deyiləm ora. Bircə nənəm üçün darıxırdım. Onunla da hər gün danışıram.*

*Dediyinə görə atası yol qəzasında ölüb. Anası isə xərçəngdən dünyasın dəyişib. Nənəsi ilə yaşıyır və bir balaca qardaşı var. Birazdan idarə elədiyi Kamazla Laçın tərəfə gedəcək. Çatdırılması vacib olan bəzi şeylər var.*

*- Şəhərdə nə işlə məşğul olurdun?*

*- Heçnə taksi işlədirdim. Qardaşımın təhsil haqqını və digər xərclərimizi ödəmək üçün çalışırdım. Bir də qız gilin qapısının ağzında "kruqlayırdım" - bərkdən gülüb, davam edir: - ailə sürücüsü kimi seçmişdilər məni. Şuşadandılar... Zalım qızı o qədər yaraşıqlıdır ki utanırdım ona ürəyimi açam. Atasının da imkanı yaxşıdır deyə bir az çəkinirdim ki birdən rədd cavabı alaram və atası bilər biyabır olaram. Amma onları harasa aparanda qız gözün məndən çəkmirdi. Tibbdə oxuyur. Savadlı qızdı... - Sözün kəsib: - Heç olmasa gələndə bir kəlmə də olsa nəsə demədin?*

*- Dedim... dedim...Əcəmi tərəfdə qonaqlıdaydılar. Kişi zəng elədi ki, "gəl bizim maşını sür apar". Mənə də səfərbərlikdən zəng gəlmişdi. Birisi gün yola düşürdüm... Kişi maşında başladı mənimlə zarafat etməyə. Ona "hara gedək?" deyəndə "Oğulsansa sür Şuşaya" dedi. Elə onda söhbət açıldı. Kişidən halallıq alıb cəbhəyə yollanacağımı dedim. Elə bil ayıldı. "Cavid , məni Şuşaya aparacağın gün bu "Lexus"u sənə hədiyyə edəcəm", - deyib, gözləri yaşardı. Güzgüdən qızın qaynar baxışlarını gördüm. Mənə baxan gözləri Canavar balasının gözü kimi qaynar və işıltılıydı. Anasının dərdindən çox baxa bilmədim. Qız xahiş elədi ki marketlərin birinin yanında saxlayım. Saxladım. Gedib gəldi... Evlərinə az qalmış sürücü tərəfdən oturacağın arasından mənə qutu ötürdü. Onda hər şey məlum oldu.*

*- Nə varıydı o qutuda?*

*Sualıma gec reaksiya verdi. Çox güman ki fikri-xəyalı qızın yanındaydı. Qısamüddətli səyahətindən döndərmək istəmədim. Amma özü döndü... Cəld qurdalanmağa başladı. Əlini formasının döş cibinə salıb, bir qutu "Kent4" bir də sellafona bükülü bir şey göstərdi: - Bax bunları vermişdi: İki paçka kent, bir də göz karandaşı ilə tələmtələsik yazdığı məktub. Kentin birini çəkmişəm. Bunu da Şuşaya saxlayıram...*

*Çox səmimi danışır. Gözümün yaşı içimə axırdı. Arvad kimi ağlamaq istəmirdim birazdan Laçına gedəcək laçın təki igidimin yanında.*

*Amma hönkürüb qucaqlamaq istəyirdim. Təpədən dırnağa Qubadlı, Zəngilan, Füzuli qoxusu gəlirdi qəhrəman əsgərin barıt hisinə bulaşmış formasından. Bir təhər özüm də güc toplayıb: - Cavid, sir deyilsə məktuba baxmaq istəyirəm. Razılıq verdi və eytiyatla açıb, - əlimdə bax, - dedi. Səliqəli və tələsik yazılan kağız parçasında:*

*"Cavid, bizi Şuşaya aparana qədər səni gözləyəcəm. Özünü qoru. Səni sevirəm" yazılmışdı. Cümlənin hər sözündə , hər sözün hər hərfində saf sevgi görünürdü. O sevgi ki bir igidi Füzuli cəbhəsindən taaa Şuşaya aparacaq. Sizə sevgi deyirəm haa... O sevgi ki, Şuşada qələbə günü ilə eyni anda elan olunacaq.*

*- Cavid, heç olmasa zəng edirmi? - sualımı komandirin səsi yarımçıq qoydu: - Gecikirsən, Canavar, tez ol biraz... - deyə qışqırdı. O cəld Kamaza dırmaşıb maşını işə saldı. Sonra şüşədən başın çıxarıb: Məndə nömrəsi yoxdu... Nəysə qaqaş , tez qayıdacam burda olsan görüşərik. Darıxsan o tərəfə get şərəfsizlərin leşinə bax başın qarışsın - bərkdən gülməyə başladı və maşını yola düzəltdi.*

*Uçuq evin daşına söykənib kamaz gözümdən itənə qədər onu izlədim.*

---

## *ABŞ-ın Yeni prezidenti kim olacaq?*




**ABŞ-da keçirilən president seçkiləri başa çatıb. Hazırda səsvermənin nəticələri hesablanır. Palitoloqlar arasında aparılan sorğuların nəticələrinə görə duruma qiymət vermək çətindir. Bir sıra ştatlarda əvvəlcədən verilən proqnozlar özünü doğrultmur.**

Ağ ev rəhbəri uğrinda hazırki president Donald Tramla, resbublikaçı namizəd Co Bayden arasında ciddi mübarizə gedir. Tramp Pensilvaniyada (20 süçici), Corciya və Miçiqanda (16 seçici), Viksonsinidə (6 seçici), Alyaskada (3 seçici) irəlidədi. Bayden isə Nevadada ( 6 seçici). FOX NEWS-in məlumatına görə hələki Bayden 238 seçici, Tramp isə 213 seçici səsi qazanıb. Hər iki namizədin real seçilmək imkanları var. Rusiyalı politoloq bidirir ki, " mən Baydenin bu seçkilərdə qalib gələcəyin düşünürdüm. Amma elə bir çətin vəziyyət yaranıb ki, Tramp Baydeni güncə sıxışdirir". Koloçovun fikirincə ilkin nəticələrə görə Tramp qalib gələcək, Lakin sonra electron poçtla gələn səslər hesablanacaq Burda isə Bayden tərəfdarlarının üstünlüyü göz qabağındadır. "Ona görədə Teampın qalib gələcəyini inamla söyləmək düz olmaz". Strateji Kommunikasiya Mərkəzinin prezidenti Dmitri Abzalov da Trampın strateji regionlarda səslərini saxladığını qeyd edir. Onun fikirincə seçkilərin nəticəsi əsasən Florida, Texas və Pensilvaniyadakı səsvermənin nəticələrindən asılıdir ki, bu ştatlardada Tramp qalib gəlir. Miçiqan və Viksonidə də Tramp irəlidədi.

Görünən odur ki, elektron poçtla gələn səslərin hesablanması hələ bir həftə çəkəcək. Ona görə də hələlik kimin qalib gələcəyi barədə qəti proqnoz vermək çətindir.

**Seçkiöncəsi yazılarımızda da qeyd etmişdik ki, istənilən halda kimin qalib gəlməsindən asılı olmayaraq, qarşı tərəf nəticələrlə razılaşmayacaq. Yenə Rusiya və Çinin seçkilərə müdaxiləsi məsələsi ortaya atılacaq. Bir sözlə hələ maraqlı seçki marafonunun başa çatdığını söyləmək hələ tezdir.**

**Rüstəm Hacıyev**

---

# Əsgərə dəstək, orduya yardım kampaniyası davam edir

**Ordumuz da, Xalqımız da o möhtəşəm və böyük Qələbənin astanasındadır! Qarabağ erməni əsarətindən azad olur! Qarabağ igidlərimizin qüdrəti və döyüş əzmi ilə artıq hissə-hissə nəzarətimizə keçib. Düz 30 illik həsrət artıq vüsala çevrilməsi reallaşıb! Bunu xalq olaraq, millət olaraq seyr etməkdəyik!**

Bu gün hər bir azərbaycanlı Azərbaycan ordusunun yanında olmasını, onu dəstəkləməsini ifadə etməyə çalışır. Hər kəs bu qələbəyə, bu zəfərə bir kömək, bir yardım etmək üçün sanki yarışa çıxıb. Orduya dəstək məqsədilə xalq könüllü səfərbərliyə gedir, əsgərlərin ərzaq, su və s. ehtiyatlarını ödəmək üçün yardımlar edir, yaralılara kömək üçün qan verməyə çalışırlar. Bunlarla yanaşı, ölkəmizdə fəaliyyət göstərən hökumət və qeyri-hökumət müəssisələri, şirkətlər, imkanlı şəxslər Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna ianələr etməklə ordumuza və dövlətimizə dəstək kampaniyasını həyata keçirirlər.

Bu nəcib təşəbbüsə Müharibə Veteranı Qadınlarına Sosial Yardım İctimai Birliyi də qoşulub. Birliyin sədri Radə Abbasın təşəbbüsü ilə növbəti dəfə yardım dolu maşın əsgər və zabirlərimizə sovqat aparıb. Bu dəfə də Qarabağ rayonu Müşfiqabad qəsəbəsi məscidi icmasının sədri Hacı İrşad Süleymanov, Müharibə Veteranı Qadınlarına Sosial Yardım İctimai Birliyinin mətbuat xidməti katibi Svetlana Osmanlı, birliyin üzvləri Gülpəri Sərkarova, Şəhla Eminova, Nəzakət Məmmədova, ehtiyatda olan polkovnik Azər Hacıbəyli, tarix elmləri üzrə fəlsəfə doktoru Ramazan Hüseynli yardım kampaniyasının təşkilində və çatdırılmasında yaxından iştirak ediblər.




Döyüş bölgəsində yerləşən N saylı hərbi hissənin əsgər və zabitlərini salamlayan fəallar arxa cəbhədə olan hər kəsin onlarla qürur duyduğunu və hər gün onlara bir ana kimi, bir valideyn qədər duaçı olduqlarını bildirdilər.

Birliyin sədri Radə Abbas gənc əsgərlərimizə gətirdikləri sovqat haqqında məlumat verərək bildiri ki, alt geyimləri, dərman ləvazimatları, ərzaq və sairdən ibarət olan bu sovqat əslində simvolik xarakter daşıyır: " Biz əslində sizin yanınızda, arxanızda olduğumuzu bildirməyə gəlmişik. Bilirik ki, Azərbaycan Ordusu dövlətimizin, şəxsən Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin hərtərəfli diqqət və qayğısı ilə əhatə olunub. Şəxsi heyətin təchizatı, təminatı və sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində fəaliyyətlər bu gün də davam etdirilir. Amma bu bizim valideynlik, vətəndaşlıq, insanlıq borcumuzdur. Hər birimiz ordumuz üçün əlimizdən gələni etməliyik!Belə gəlişlərimiz mütamadi xarakter daşıdığı üçün artıq sayını da itirmişik və müharibə bitənə qədər sizlərdən sovqatlarımızı əskilməyəcəyik!

Digər qonaqlar da Azərbaycan Ordusuna səmimi ürək sözlərini bildirdikdən sonra onlarla sağollaşıb ayrıldılar.

**İnşallah qələbə günü görüşmək ümidilə! Qarabağ Azərbaycandır!**

**Əntiqə Rəşid**
**"Ədalət" qəzetinin Qarabağ bölgəsi üzrə xüsusi müxbiri**



*Adil Şirin*

### DÖZÜMÜN PARTLAYIŞI

(Müharibə şəkilləri)

(Poema)

Nə müddətdi əsir idi
Qarabağda doğmaların qəbri
Axır ki, dözə bilmədi,
odlandı Odlar Yurdunun
qeyrət, şücaət
nifrət yükü - səbri.

Hər yan yurdun bayrağına,
Hər kəs əsgər paltarına büründü.
Uşaqdan-böyüyə bir xalqın
Hürlüyü, birliyi göründü.

Bu gün ataları, qardaşları
düşmən üstünə səkir.
Uşaqlar rəngbərəng
müharibə şəkilləri çəkir.

Şəkillərdə top-tüfəng,
şəkillərdə qan-qada
şəkillərdə ölüm var.
şəkillərdə yaralı əsgərlərin harayı,
şəkillərdə əsgər analarının fəryadı...

***

Müharibə şəkilləri
çəkir bizim uşaqlar,
QARABAĞDI müharibənin adı.
Bu gün bizim bir adımız
Qarabağdı, Qarabağ!!!

Qarabağdı
udduğumuz hava,
içdiyimiz su.
Qarabağdı
öpüb göz üstünə
qoyduğumuz torpaq.

Qarabağdı
Arifin, Alimin, Mənsumun səsi
Bu məmləkət -
Qarabağ şikəstəsi...

İnsafın olsun, Qarabağlı oğlan,
Allahı sevərsən belə oxuma.
Gecələr ana yurdumun dağları
girir yuxuma.
Cökə qoxuyur
bizim dağların sisi, dumanı.

Ana südü, dağ çiçəyi
dərdimizin dərmanı.

Biz həm şahid olduq,
həm şəhid olduq
o dağlarda qalıb mənim ürəyim.
Söylə indi nəyə yarar
mənim arzum, diləyim.

Söylə indi qar yağırmı
güvəndiyim dağlara?
Söylə indi necə dönüm
mən o əski çağlara?

***

Xalqın özü cəbhədə,
Xalqın gözü cəbhədə.
Qulaqlar şəkli, şəkli
Xəbərlər rəsmi, rəsmi.
Uşaq qeyrəti güzgüsü,
Qarabağ həsrəti, üzgüsü -
balaların şəkli, rəsmi.

Cəbhədə qara yellər əsir,
toplar qulaq batırır.
İllərdi Qarabağ əsir.
Bir səbrin partlayışından
Yer titrəyir, göy əsir.

Uşaq şəkillərində
düşmənlər üstələnir.
Rənglərlə qələbənin
himni bəstələnir.
Qovulur Qarabağdan
Qara niyyət, qara yağı.
Səslənir
ucalır göyə,
Qarabağ şikəstəsi - nəğmə bayrağı.

Bir səbrin,
dözümün partlayışı
Qoyur qələbənin himini.
Bəstələyir hünərin,
zəfərin -
Qarabağ himnini!

***

Qarabağ şikəstəsidi
bu gözəlim məmləkət.
Dağlar bizə,
biz dağlara həsrət.

Şuşanı, Laçını bir də görmədən
ölümə can verməræm mən -
dayanaram sinə gərib.
Şuşalı, Laçınlı uşaqlar böyüyür,
köçkün şəhərciyində
Qarabağı görmədən - qərib-qərib

Nə hərb, nə sülh
dövrünün uşaqları
yuxularında belə görməyib onlar
Qarabağın özünü,
Şuşa, Laçın dağlarını.
Hacısamlı meşəsini,
Şəlvə dərəsini,
Cıdır düzünü.
Köçkün şəhərciyində
oğul doğur analar.
O oğullar böyüyüb
Vətəni qoymaz darda.
Yeri gəlsə dönərlər
hər biri bir boz qurda.

Köçkün şəhərciyində
üzü ulu, doğma yurda boylanan
boynu bükük
bənövşədir sonalar.

Köçkün şəhərciyində
şeir yazır qarabağlı şairlər,
bağrı dağlı şairlər.
Quşlara qoşulub dağlara sarı
Uçmaq, uçmaq istəyir
yazdıqları şeirlər.

Köçkün şəhərciyində
şeir yazır Türk oğlu.
Yazdığı şeirlər
Yer üzünə, göy üzünə,
Dünyaya, insanlara
sevgi, məhəbbətlə dolu.

Baxın qan ləkəsi var
Azadlıq meydanında.
Qan ləkəsi var, şair,
biganələrin ütülü vicdanında.

Baxın qan ləkəsi var
şairlərin şeirlərində,
Uşaqların çəkdikləri şəkillərdə.
Baxın qan ləkəsi var,
yaralı könüllərdə.

Qan ləkəsi var
Qarabağlı oğlanın
yanıq səsində
Qan ləkəsi var
Qarabağ şikəstəsində.

***

Nə vaxtdı el yerimir
bizim dağlara sarı
Otuz ildi ərimir
əsir dağların qarı.

Yuxularda görürəm -
dağ yolu çınqıllı, daşlı.
Yol üstə mələk anam,
yenə gözləri yaşlı.

Yol üstündə bir gəlin,
lalə kimi həyalı.
Dağlar yağı əlində,
olubdu dağ xəyalı.

Yol üstündə bir uşaq
göz yaşını gizləyir.
Ay-ulduzlu ordunu
qələbəylə gözləyir.

Yol üstündə bir şair -
baxır dağlara sarı.
Misraları həsrətdən
Xəzan tək sarı, sarı.

Yol üstündə bir ağac -
Ağacda quş yuvası.
O kimdir oxuyur, Tanrım,
səsində qürbət havası.

***

Röyada bir dağ kəndi,
damı, daşı yaralı.
Kəsilib bənd-bərəsi
adamlardan aralı...

Ağacların içində
yanıq cökə ağacı.
O da ağac şəhidi
O da ağac qaxacı.

Geri dönə bilməyib
ordan keçən durnalar.
Susdurub "Vağzalı"nı
qız köçürən analar.

Ürəklərə dar gəlir
sinələrin qəfəsi.
Təsəlli deyil artıq
durna qatarının səsi.

Axır ki, bir millətin
Səbri ona dar gəldi.
Qarabağın itkisi
hər insana ar gəldi.

***

Qarabağ şikəstəsidi
bu gözəlim məmləkət,
Dağlar oğludu
Laçınlı Əhməd.
İçini didir
bir dəli həsrət.

Bir vaxtlar vardı,
bir vaxtlar vardı -
Qarabağı Əhmədə
həm yurddu, həm də yardı.

Həkəri çayında axıb getdi Əhmədin
dəli-dolu gəncliyi.
Köçkün şəhərciyində
lövbər saldı dincliyi.
Birtəhər ömür sürür -
nə rahatlığı var, nə də dincliyi.

... Qarabağ şikəstəsidi məmləkət
"Aləm cənnətə dönsə
Yaddan çıxmaz Qarabağ".

Yandım-yandım, ay ana,
ölümdən qorxmur Laçınlı Əhməd,
amma qəriblikdə ölmək
çox ağır gəlir ona.

O dağlar oğludu,
bəxtsiz, talesiz bir dağlar oğlu.
Qolları açıqdı,
yolları bağlı.
Bir ömür yaşayıb
ağlı-qaralı,
qaralı-ağlı.

Qarabağ şikəstəsi oxunanda
qarışır Əhmədin ağlı.
Mələk üzlü anası
dərddən yumağa dönüb
Sıxılıbdı bir küncə.
Hər gün yüz yol ölüb-dirilir
bu zavallı ananın gözlərini görüncə...

Ana, ana, ay anam,
saçları bəyazı anam;
həsrəti ayazlı anam
Az qalıb olacaqsan
Qarabağ yazlı, anam.

***

Hələ müharibə şəkilləri
çəkir bizim körpələr
Uzanır Qarabağa
Rəsmlərdən körpülər.

Müharibə şəkilləri çəkir
bu gün bizim uşaqlar.
Şəkil, - zəfər yazılır,
Azərbaycan bayrağı.
o yerlərdən asılır.

Hər an, hər gün eşidilir
Murovdağdan,
doğma əziz Qarabağdan
Zəfər dolu sorağımız.
Doğma yurdun dağlarında
daha da gur alovlanır
öz odumuz, ocağımız.

***

Bir oğul da dönməyir
Yurdunun yad daşına.
Haqqın həqiqətiylə,
Xalqa sədaqətiylə
Qələbə, zəfər yazır;
Tarixin yaddaşına -
Tarix yazan sərkərdəmiz!

Hər sözündə, kəlməsində
Ümid var, qətiyyət var
Məğrur baxışlarında
Sevgi var, ləyaqət var.

Düz yolu - Heydər yolu,
Öz yolu - Heydər yolu.
Ulu öndərin oğlu
Ucaldır hür səsini.

Xalqımın gücüylədir
Xalqımın zəfər yolu.
Yazır Qarabağının
Hünər salnaməsini.

***

Bu gün bir döyüşçüdür
Millətimin əksəri.
Qarabağnamə yazır
Azərbaycan əsgəri!

Sənin ilə sona yetsin
buayrılıq, bu həsrət.
Sona yetsin bu intizar,
sona yetsin bu möhnət.
Azərbaycan əsgəri!

Sənin ilə qarşılarıq
müjdə dolu səhəri
Sən ey cəsur, qorxu bilməz,
Azərbaycan əsgəri!
Sənə qurban bu baş, bu can
Azərbaycan əsgəri!

Hər an səndən gözləyirik
Qələbəni, zəfəri.
Var ol! Var ol!
Yaşa! Yaşa!
Azərbaycan əsgəri!

Şəhidlərin qisasını
alacaqsan bilirəm.
Tarixlərin yaddaşında
qalacaqsan bilirəm.

Aman vermə
dəl bağrını düşmənin.
Şərəfləndir tarixini -
Zaman sənin, an sənin.

Qoy, kəsilsin torpağımdan
yad ayağı, nəfəsi.
Qoy yayılsın Qarabağdan
bu dünyaya haqq səsin.

Qələbəylə açılsın hər səhərin,
Tarixinə qızıl xətlə yazılsın hər zəfərin!

Hər an səndən gözləyirik
qələbəni, zəfəri.
Tanrı sənə kömək olsun,
Azərbaycan əsgəri!

***

Müharibə şəkilləri
çəkir bizim uşaqlar,
QARABAĞDI müharibənin adı.
Bu gün bizim bir adımız
Qarabağdı, Qarabağ!!!

Ağlamaqla, sızlamaqla
bu dərd çözülən deyil.
Şair dostum, ümidlən
ümid üzülən deyil.

Sınaqlara çəkdi bizi,
illər boyu bu həyat.
Vətən, canım sənə qurban!
Başqa bir yol yoxsa artıq
bir yolumuz var - CİHAD!
CİHAD! CİHAD! CİHAD!

Dağlar bizi gözləyir
Allah mənə qanad ver
QANAD! QANAD! QANAD!

... Hər mərmi bir zəfər toxumu
Ordumuz qələbə əkir.
Uşaqlar da sevincinə boyayıb
Qələbə şəklini çəkir...

# Ömrünün sonlarını xeyriyyəçiliyə həsr edən qəhrəmanımız

**Azərbaycan xalqı, özünün tarixi, maddi-mədəni abidələri, zəngin ədəbiyyatı, incəsənəti və musiqi mədəniyyəti ilə həmişə fəxr etdiyi kimi, tarixini yaradan şəxsiyyətlərə, Vətənin azadlığı naminə canını fəda edən oğul və qızları ilə də haqlı olaraq öyünür.**

Xalqımız Vətəni yadelli düşmənlərdən qoruyan, ağıllı tədbirləri ilə xalqına düzgün yol göstərən Varaz oğlu Cavanşirlə, Uzun Həsənlə, Şah İsmayıl Xətai ilə, doğma Vətəni uğrunda da canından keçən, ölümün gözünə dik baxan Babəklə, doğma diyarın istiqlalı, müqəddəs torpağın şərəfi yolunda canını qurban verən igid qəhrəmanları ilə həmişə fəxr edib, onları əbədi xatirə kimi qəlbində yaşadıb.

### Qəhrəmanlar heç vaxt unudulmur

Aprel döyüşləri və eləcə də artıq bir aydan çoxdur davam edən II Vətən Müharibəsi göstərdi ki, Azərbaycanın qəhrəmanlıq məktəbi daima yaşayıb və bu gün də yaşayır. Bizdən qabaqkı nəsil Qarabağı itirmişdilər, amma sona kimi döyüşmüşdülər, indisə Qarabağı qarış-qarış qaytarırıq.

***Qəzetimizin 16 iyun 1992-ci il sayında dərc olunan tarixi faktlardan birini sizə təqdim edirəm. Tarixdə imzası olan, əsrimizin əvvəllərində Azərbaycanın Zəngəzur mahalını və Qarabağı daşnaq təcavüzündən xilas edən layiqli oğullarımızdan biri Xosrov bəy Paşa bəy oğlu Sultanov haqqında məlumatı olmayanlar üçün yeni, olanlar üçün isə bir də təkrar olsun (o, xalq qəhrəmanı Sultan bəyin ortancıl qardaşıdır).***

Xosrov bəy 1879-cu ildə keçmiş Mağavız mahalının Kürdhacı kəndində (indiki Laçın rayonu), öz müdrikliyi ilə tanınan el ağsaqqalı Paşa bəyin ailəsində anadan olub (sonralar Xosrov bəy atasının adını özünə təxəllüs kimi qəbul edir və Xosrov Paşa bəy Sultanov kimi məşhurlaşır).

### Uşaq yaşlarından

dərin ağıl və zəkaya malik olan Xosrov bəy Hacı Samı bəylərindən olan atası Paşa bəyin səyi ilə ilk təhsilini Şuşada aldıqdan sonra orta təhsilini Gəncə klassik gimnaziyasında başa çatdırır, 1897-ci ildə Novorossiysk universitetinin (Odessa) tibb fakültəsinin pediatriya şöbəsinə qəbul olur.

O burada qələbə yoldaşı Nəriman Nərimanovla tanış olub dostlaşır. Onlar birlikdə universitetdə təşkil edilmiş azərbaycanlı tələbələrin "həmyerlilər" (Zemlyaçestvo) təşkilatının fəal üzvlərinə çevrilirlər.

1903-cü ildə universiteti fərqlənmə diplomu ilə başa vuran Xosrov bəy həkim kimi Tiflis şəhərinə gəlir, müəyyən müddət burada yaşayır və həkimlik edir. Onun məhz siyasi-ictimai fəaliyyətə başlaması da bu şəhərlə bağlıdır.

O, Tiflisdə yaşayan azərbaycanlıların, demək olar ki, bütün mədəni-maarif cəmiyyətlərinin işində gəal iştirak edir, 1916-cı ildə Bakı şəhərinə köçüb öz həkimliyini davam etdirir.

Heç bir firqəyə mənsubiyyəti olmayan, bitərəf Xosrov bəy Rusiyada 1917-ci ildə baş verən fevral burjua inqilabından sonra siyasi hadisələrə qoşulur, tərəddüd ermədən geniş fəaliyyət göstərən "Ədəmi mərkəziyyət" (Müsavat) firqəsinə üzv olur. Həmin ildə o, Bakıda keçirilmiş musavat firəqəsinin I qurultayında fəal iştirak edərək Məmməd Əmin Rəsulzadə ilə birlikdə Azərbaycan Milli Hərəkatının ilk mübarizlərindən birinə çevrilir. Rusiya müvəqqəti hökuməti Zaqafqaziyada yaşayan millətlərin milli hərəkatınnı qarşısını almaq, onu zəiflətmək məqsədilə 1918-ci ildə Tiflis şəhərində "Zaqafqaziya seymi" çağırılır. Seymdə 47 nəfər Azərbaycan nümayəndəsi heyətində Xos-



rov bəy Sultanov da iştirak edir. O, seymdəki fəaliyyəti dövründə bəzi siyasi düşüncələrinə görə "Müsavat" firqəsindən çıxaraq, vaxtilə Qarabəy Qarabəyov tərəfindən yaradılmış "İttihad" firqəsinə üzv olur.

### 28 may 1918-ci ildə

***Azərbaycan Demokratik Cümhuriyyəti elan olunanda Xosrov bəy Fətəli xan Xoyskinin təşkil etdiyi koalisiyon kabinetdə hərbi nazir, ikinci və üçüncü hökumət kabinetlərində ziarət (torpaq) naziri vəzifələrini icra etməyə başlayır. Elə həmin ildə də o, Bakıda təntənəli surətdə açılmış Azərbaycan parlamentinə yekdilliklə üzv seçilir.***

1919-cu ilin əvvəlində Zəngəzurda və Qarabağda erməni daşnak dəstələrini fəaliyyəti gücləындən Azərbaycan Demokratik Respublikası Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl qəzalarını əhatə edən xüsusi səlahiyyətli "Qarabağ general qubernatorluğu" yaratmaq məcburiyyətində qalır, Xosrov Paşa bəy Sultanovu Qarabağ general-qubernatoru təyin edir. Sonralar öz əqidəsini dəyişmiş "məşhur inqilabçımız" Çingiz İldırım Sultanov Zəngəzur və Qarabağda general-qubenator Xosrov Paşa bəyin müavini olur.

***O vaxtlar da erməni daşnakları cilahsız Zəngəzur və Qarabaö kəndlərinə tez-tez basqınlar edirdi. Erməni millətçilərinin yeganə məqsədi Qarabağın dağlıq hissəini Azərbaycandan ayırıb Ermənistanla birləşdirmək idi, hərbi əməliyyatlara ermənilərin tanınmış generalları Dro Konayan və Njde başçılıq edirdilər. Olduqca tədbirli bir şəxs olan Xosrov bəy öz böyük qardaşı Sultan bəyə erməni millətçilərinin bütün cəhdlərini dəf edərək Qarabağa və Zəngəzur qəzasına yeridilən nizami erməni qoşun hissələrini darmadağın edir.***

Bu məğlubiyyətdən sonra sakitləşə bilməyən erməni millətçiləri Ararat daşnak köməyi ilə Qarabağın Taqavert kəndində 192-ci ilin əvvəllərində oyuncaq "Milli hölkümət" yaradırlar. Bu "hökumət"in ömrü çox qısa olur. Xosrov bəyin səyi nəticəsində hökumət ləğv olunur.

Azərbaycanda Sovet hökuməti qurulduqdan sonra Xosrov Paşa bəy Sultanov Şuşa inqilab komitəsinə üzv seçilir. 1920-ci ilin payızında Zəngəzurda general Njde, Qarabağda hadrutlu çar zabiti Tevan Stepanyan (Xankəndiyə bu adamın adını qoyublar) və Baxşı İşxanyan daşnak qiyamını təşkil etsələr də, Xosrov bəy onları qətiyyətlə öz yerlərində oturdur. Lakin mənfur XI ordu CK-nın sədri, Azərbaycan xalının cəlladı Pankratov Xosrov bəyi çoxdan izləyirdi. Öz elinə can-başla xidmət edən Xosrov bəy guya Qarabağda baş verən daşnak və müsavatın antisovet qiyamının başçısı kimi həbs edilərək Bakıya göndərilir.

### Xosrov bəyi yaxşı tanıyan Nəriman Nərimanov

onu həbsdən azad etdirir, xahişini nəzərə alaraq Türkiyəyə getməsinə icazə verir (N. Nərimanov Xosrov bəyin təhlükəsizliyini Türkiyəyə qədər təmin etmək məqsədilə Bakını milyonçu qoçusu Teybur bəy Aşurbəyovu ona müşayiətçi verir). Türkiyənin Trabzon şəhərində məskunlaşan Xosrov bəy burada "Xeyriyyə cəmiyyəti" təşkil edir. Bu cəmiyyət Azərbaycandan qaçan mühacirlərə, müsavatçılara və burjua ziyalılarına yardım etmək üçün yaradılmışdı. Sonralar İstanbula köçən Xosrov bəy öz siyasi fəaliyyətini daha da genişləndirir.

Böyük siyasi-ictimai xadim, xalq qəhrəmanı dərəcəsinə qədər yüksələn Xosrov Paşa bəy Sultanov 1941-ci ildə İstanbulda vəfat edir və orada təntənə ilə dəfn edilir.

**Ömrünün sonlarını Vətəndən kənarda yaşasa da xeyriyyəçiliklə öz soydaşlarına xidmət edən bir qəhrəmanı unutmaq tarixə xəyanətdir...**

**Eminquey**

*Şahlar İSMAYILOV*



### *İti qovan kimi qovuruq sizi!*

Erməni faşistlərinə

Siz ey köpək itlər, yuvama girib,
Dabanlar yalayıb,sümük gəmirib,
Bir zaman bizlərə acı gətirib,
İndi dağıdırıq hər nöqtənizi,
"İti qovan kimi qovuruq sizi"!

İllərlə yaşadıq Vətən dərdini,
İgidlər itirdik - neçə mərdini.
Pozma gəl, ay köpək, döyüş şərtini,
Faşistsən, namərdsən, dünya xəbisi,
"İti qovan kimi qovuruq sizi"!

Tarixin ən gözəl ili, ayıdır,
Tanrının bizlərə verən payıdır.
Kəlbəcər, Laçınım, Şuşam qayıdır,-
Xanın zənguləsi, Cabbarın səsi.
"İti qovan kimi qovuruq sizi"!

Göydən od-alovlar yağır başıza,
Zəhər qatmışıq biz haram aşıza.
Əzəldən bələdik davranışıza,
Rədd olun, tərk edin can ölkəmizi!
"İti qovan kimi qovuruq sizi"!

### Alimlər yardım etdi

*Azərbaycan-Ermənistan sərhəddində sentyabr ayının 27-dən Ermənistan silahlı qüvvələrinin atəşkəsi pozması və sərhədboyu ərazilərimizi iriçaplı artilleriya qurğularından atəşə tutması nəticəsində başlanmış olan müharibə nəticəsində Bərdə Dövlət İdarəetmə və Texnologiya kollecində müvəqqəti olaraq yerləşmiş Tərtər rayonundan olan mülki vətəndaşlar üçün AMEA Azad Həmkarlar İttifaqı və AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Həmkarlar Təşkilatının təşəbbüsü ilə "Nikai NTV4516LED" markalı televizor,56 ədəd dəsmal vəyataq dəstialınıb onlara aparılmışdır.*

*Arxeologiya və Etnoqrafiya İnstitutunun Həmkarlar Təşkilatının sədri Əbuzər Ələkbərov şəxsən özü onlarla görüşmüş, alınan malları təqdim etmişdir. Arxeologiya və Etnoqrafiya İnstitutu bu təqdirəlayiq missiyanı Binəqədi rayon 7-ci mikrorayonda yerləşən "Ay Clinic", "MEM" Psixologiya Mərkəzi və "Miqrasiya Proseslərinin Tədqiqi" İctimai Birliyi Qeyri-Hökumət Təşkilatı ilə birlikdə həyata keçirmişdir. Sözügedən təşkilatların köməyi ilə mətbəx ləvazimatları, pal-paltar, yorğan-döşək, xalçalar, təmizlik vasitələri və 2 ədəd qoyun alınıb mülki vətəndaşlara verilmişdir.*

*Orada məskunlaşmış ailələr belə bir çətin vaxtda onlara göstərilən qayğıya görə minnətdarlıqlarını bildirdilər.*

*Bir olaq! Birlikdə olaq! Qarabağa dəstək olaq!*

*Qarabağ Azərbaycandır!*

**Layihənin istiqaməti: Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

**№ 124 (2158) 5 noyabr 2020-ci il**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

# Ermənilərin törətdikləri terror aktları və təxribatlar

**XX yüz ilin əvvəllərindən başlayaraq erməni terrorçuları Azərbaycan xalqına qarşı bütün türk dünyasını əhatə edən ağlasılmaz terror aktları törədiblər.Rəsmi qeydiyyatdan keçmiş, erməni terrorçuları tərəfindən törədilən terror aktları barədə xronoloji məlumat aşağdakı kimidir.**

**1)** 02.02.1905

-Qazar Stepanyasın Zəngəzur mahalının Qarakilsə bölgəsinə hücumu zamanı yüzbaşı Səttar Mürsəl oğlu Əhmədov Uz kəndində yaşayan terrorçu Artyun Manuxyan tərəfindən qətlə yetirilib.

**2)** 1903-cü ildən Daşnakstün partiyasına qoşulan faşist Droqanayan, Qazar Stepanyansın Zəngəzur məğlubiyyətindən sonra 1905-ci ildə Bakıya gəlir.Bakıda meydana gələn erməni müsəlman qarşıdurmasında iştirak edir.Şəhər meri Nakaşidzenin faytonuna bomba atır.Partlayış nəticəsində qubernator həlak olur.

**3)** 05.02.1905

-Bakı şəhərinin Sabunçu qəsəbəsində Ağar Babayev ermənilər tərəfindən öldürülüb. Erməni alimi və yazıçısı Setrak Libarityanın yazdığına görə, 1904-1906 illər ərzində erməni terrorçuları 105 nəfər azərbaycanlı qətlə yetiribler.

**4)** 06.02.1905

-Bakının Mixaylovsk şəhər xəstəxanasında Bagrat Lalayanın, Aram Babayantsin, Ter Osinyanın təhriki ilə 51 nəfər dinc əhali terrorçuların hücumuna məruz qalır. Qətlə yetirilənlərin 34 nəfəri azərbaycanlı olur.

**5)** 07.02.1905

-Bakı şəhərində erməni terrorçuları tərəfindən 100 nəfərdən çox müsəlman qətlə yetirilib.

**6)** 09.02.1905

- Bakı yenə də həmin erməni terror təşkilatışəhər sakinlərini qətl-qarət etmişlər. Erməni terrorçularının Bakıda hələ 1904-cü ilin axırlarında yayılmış intibahnamələrində ifadə olunmuş hədə-qorxuları ardıcıl sürətdə həyata keçirilmişdir. Qatillər kütləvi qırğınlar törətdikdən sonra varlı ermənilərin evlərinə yığışmış və binaların pəncərələrindən, dam- larından şəhərin küçələrinə atəş açmış, bomba və qumbaralar atmışlar. 1905-ci ilin 6-10 fevral hadisələri tarixə "Bakı şəhərində qanlı qətl" kimi daxil olmuşdur. Yuxarıda adları çəkilən varlı ermənilərlə yanaşı, Mantaşev, Terqukasov, Melikyants da öz proqramlarını həyata keçirməyə başlamış "Daşnaksütyun" beynəlxalq terror təşkilatının üzvləri və sponsorları idilər.

**7)** 20.02.1905

-İrəvan quberniyasından erməni vəhşiləri görünməmiş qırğın törətmiş, insanları qətlə yetirmiş, yandırmış məhv etmişlər. Zəngəzur Dərələyəz, Vedibasar, Sürməli, Zəngibasar bölgələri erməni basqınlarına məruz qalmışlar.

**8)** 21.02.1905

-Türkiyənin İstanbul şəhərində "Taşnaksyütun" partiyasının terrorçu üzvləri dövlət xadimləri Soltan Əbdul Hamida suo-qəsd ediblər. Erməni siyasətçisi Karen Papazyan "Eybəcərləşmiş vətənpərvərlik" adlı kitabında yazır: "Soltan Əbdül Həmidin həyatına edilen sui-qəsd siyasi məqsədlərə terror yolu ilə nail olmaq üçün ifrat tetbirlərin biri idi. Bombalar vaxtından əvvəl partladığı üçün terror əməliyyatı baş tutmadı". Türkiyyənin dövlət başçısı nəyə görəsə humanistlik göstərib, erməni terrorçularının günahın-



dan keçib. Amma ermənilər 100 ildir ki, utanmadan, xəcalət çəkmədən Soltan Əbdül Həmidi günahsız erməniləri məhv etmiş, qəddar, müstəbid və məkrli siyasətçi adlandırıb və dünya ictimaiyyətinə olmayan böhtan dolu fikirlər çatdırırlar.

**9)** 22.05.1905

-Naxçıvan. Erməni quldur birləşmələri dinc əhaliyə qarşı qanlı azğınlıq törətmişlər. Öldürülənlər arasında qadınlar, uşaqlar və qocalar var idi.

**10)** May 1905

-Zəngəzur. Erməni quldur birləşmələri şəhərin dinc əhalisinə qanlı divan tutmuşlar. Onlarla adam öldürülmüşdür. Şahidlərin dediklərinə görə, calladlar təsəvvürolunmaz, ətürpədici edam üsulları tətbiq etmişlər. Məsələn, adamları əl-ayaqlarından nəhəng ağacların əyilmiş budaqlarına bağlayırdılar. Sonra kəndiri kəsərək budaqlarıburaxırdılar.

**11)** 08.08.1905

-Gəncə qubernasiyasının Şuşa qəzasında Vənd kəndinin 300-dən çox erməni qulduru yaxınlıqdan keçən karvana basqın etmişdir. Onlar tacirləri öldürüb əmlaklarını talamışlar. Bundan sonra vəhşiləşmiş erməni qaniçanləri qonşu müsəlman kəndinə basqın edərək Abbas bəyin oğlunu, qardaşını, nökərlərini qətlə yetirmişlər. Hadisədən az sonra hücum edib kəndin bütün sakinlərini qəddarcasına öldürmüş, evlərini yandırmışdılar. Əsgəri xidmətdən silah oğurlayıb qaçan erməni əsgərləri də quldarlara qoşulub dinc əhalini məhv etmişlər. Onlann məqsədi Şuşanın, Dağlıq Qarabağın arazisində yaşayan azərbaycanlıları qovmaq, çıxarmaq idi. Lakin tarixdə haqq-ədaləti üzə çıxaran ziyalılar olublar. Rus alimi M.A.Skibitski yazırdı:XX əsrin əvvəllərində Qarabağın dağlıq hissəsində ermənilərlə azərbaycanlıların etnik nisbati müvafiq surətdə 1/4 nisbətinde idi. Başqa sözlə yaylaq ve otlaq istifadeçilərinin 72,6%ni azərbaycancanlılar təşkil edirdi. M.A.Skibitski kitabda "Qarbağın dövlət yaylalarının xəritəsini verdiyini də bildirmişdir. Lakin bu nadir xəritə Sankt-Peterburqun, Yerevanın kitabxanalannda yoxa çıxmışdır.

**12)** 20.08.1905

-Bakı şəhərində yaxşı silahlanmış erməni quldur birləşmələri şəhərin əhalisi sıx olan müsəlman məhəllələrinə basqın etmişdilər, Çox böyük sayda insan vəhşicəsinə öldürülmüş, kişilərin başları kəsilmiş, hamilə qadınların qarınlannı yırtır,ana bətnində formalaşan uşaqları oda salır, su quyularına tökür, meyidləri dənizə atırlar.

**13)** 21.08.1905

-Şuşa qəzasının kəndlərinin birində məktəbdə təmir işləri aparan adamlara basqn edən erməni quldurları 17 neferin başini kəsmişlər.

**14)** 03.10.1905

-Sırxavənd.Erməni terro və quldur birləşmələri kəndə basqın etmişlər. Əməliyyata erməni terrorçu Hamazasp başçılıq edirdi "Daşnaksütyun" terror təşkilatının komitəsi dinc kəndliləri xüsusi vəhşiliklə qırdığına görə ona general rütbəsi verilmişdir. Çoxqisa müddətdə viran qoyulan Sirxavandkəndi azərbaycanlıların meyitləri ila dolmuşdur. Quldurlar hətta qocalara rəhmetmir, körpələri isə bir yerə yığıb kütləvişəkildə öldürdülər.

**15)** 01.01.1906

-Papravənd. Erməni quldur birləşmələri azərbaycanlıların Papravənd kəndinə basqın etmişlər. Sakinlər dinc şəkildə müqavimət göstərsələr də kənd işğal olunmuşdur. Ermənilеr kişilərin başlarını kasir, hamilə qadınların qarnını qılıncla yarır va hələ dünyaya gəlməmiş uşaqların başlarını vururdular. Qırğına erməni quldur Andronik rəhbərlik edirdi. Əsrin əvvəllərində Rusiyanın Ərzurumdakı konsulu general Q. Mayevski onun haqqında yazmışdı: "1901-ci il qışın əvvəllərində Andronik adlı birisinin erməni quldur dəstəsi Muş həndəvərində peyda olmuşdur."

**16)** 16.02.1906

-Erməni quldur birləşmələri Bakı şəhərinin sakinlərinə dəhşətli divan tutmuşlar. Rus arxivlərinin materiallarına, şahidlərin dediklərine söykənərək deyə bilərəm: - Bakıda avqust ayında baş verən hadisə qaddarlığına görə həmin ilin fevralında törədilmiş faciəni kölgədə qoymuşdur.

**17)** 12.07.1906

-Şuşa qəzasının yaxınlığındakı erməni kəndlərinə toplanmış 10 min nəfərdən ibarət quldur birləşmələri Şuşa şəhərinə miqyaslı hücuma keçmişlər. Döyüşlər 5 gün. 5 gecə davam etmişdir. Bütün müsəlman evlərinə bombalar atır,südəmər körpəlari beşiklə birlikdə yandırır, uşaqları analarının əlindən alıb başlarını kəsirdilər. Quldurlar "Daşnksyütun" partiyası nizamnaməsində yazılanlara əməl edirdilər. Erməni mənafeyini güdməyənləri, iştirak etməyən, boyun qaçıran erməniləri terror təşkilatının hökmü ilə edam edirdilər.

**(ardı növbəti sayımızda)**

***Əvəz Mahmud Lələdağ***
***Şair, dramaturq, publisist.***
***SDU-nun müəllimi***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ

# "Müəllim üçün vacib olan şəxsiyyət yetişdirməkdir"

***""McDonald's"ın mərkəzi filialına getdim. İçəri keçib baxmaq istəyəndə mühafizə işçisi içərinin dolu olduğunu və sifarişimi çöldən verə biləcəyimi dedi. İçərinin dolu olması mənə çox pis təsir elədi, bəlkə də elə o cümlə qığılcım oldu və məni orada dayanıb insanları maarifləndirməyə sövq elədi. Əslində nə boykot etməyi planlamışdım, nə də ki, bu qədər yayılmasını. Şəxsimin yox ancaq boykotun belə yayılması və səs salması açıqcası məni sevindirdi". "Ədalət" qəzetinin qonağı bu yaxınlarda ""McDonald's"a boykot" şüarı ilə insanların qəhrəmanına çevrilən, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının müəllimi Hüseyn Həsənovdur.***

**-İlk olaraq oxuculara özünüzü təqdim edin...**

-Hüseyn Həsənov. Orta təhsilimə Balakən rayonunda başlasam da, sonralar Şəki Azərbaycan-Türkiyə Özəl liseyində davam etmişəm. Daha sonra bakalavr təhsili üçün Türkiyəyə getmişəm. İngilis dili müəllimi, həm də təhsil psixoloquyam.

Psixologiya təhsilimi Azərbaycan Dövlət Pedaqoji Universitetində magistr pilləsi üzrə almışam. Hər iki sahədə fəaliyyət göstərirəm. Özəl məktəblərin birində müəllim olaraq işləyirəm, 3-cü siniflərdə sinif rəhbəriyəm.

Eyni zamanda Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında magistr qruplarına ingiliscə ali məktəb pedaqogikası fənnini tədris edirəm.

**-Müəllimlik fəaliyyətinizdən geniş şəkildə danışaq...**

-Müəllimlik fəaliyyətim rəsmi və qeyri-rəsmi (Tələbəlik illərində Türkiyədə də müəllimlik fəaliyyətim olub) olaraq artıq 18 ildir. Hər zaman şagird və tələbələrimə və hətta valideynlərə açıqca bəyan etmişəm ki, ingilis dili sizlərə öyrətməyə çalışdığım ikinci şeydir, birincisi isə şəxsiyyətin formalaşmasıdır. Mənim üçün vacib olan şagirdlərin mənim öyrətdiklərimi quru-quru öyrənməsi yox, nə üçün öyrənməyin lazım olduğunu dərk etmələridir. Bu mənada onlara təhsilin niyə vacib olduğunu da izah etməyə çalışmışam. Tez-tez istifadə etdiyim bir ifadə var ki, elə bir mövqelərə gəlməlisiniz ki, atdığınız imzalar minlərcə insanın qədərinə təsir etsin. Bir müəllim olaraq qarşımdakı heç bir şagirdi bir insan kimi görməmişəm, hər zaman düşünmüşəm ki, o uşaq, o şagir dəyişərsə onun ailəsi də dəyişər, dost çevrəsi, gələcəkdə quracağı ailə və s. Və bu fikirdən doğan bir cümlə dilimdə əzbər olub: "Bir insan bir insan deyil!"



## «Boykot müəyyən qədər alındı»

**-Bu yaxınlarda "McDonald's"ın qarşısında insanları boykota səslədiniz. Təklif kimdənsə gəldi, ya özünüzün təşəbbüsü oldu?**

-Boykotu sosial şəbəkədə görmüşdüm. Səbəbini araşdırdım əvvəlcə.

Sonra da maraqlı gəldi mənə ki, xalq olaraq necə bir birlik göstərəcəyik. Həqiqətən də, bir neçə günlük də olsa, bu "lyuks"umuzdan keçəcəyikmi?

Bir neçə günlük də olsa, bu ritualımızı pozacağıqmı? Və günorta saatlarında "McDonald's"ın mərkəzi filialına getdim. İçəri keçib baxmaq istəyəndə mühafizə işçisi içərinin dolu olduğunu və sifarişimi çöldən verə biləcəyimi dedi. İçərinin dolu olması mənə çox pis təsir elədi, bəlkə də elə o cümlə qığılcım oldu və məni orada dayanıb insanları maarifləndirməyə sövq elədi.

Əslində nə boykot etməyi planlamışdım, nə də ki, bu qədər yayılmasını. Şəxsimin yox ancaq boykotun belə yayılması və səs salması açıqcası məni sevindirdi. Məqsəd, bir ola biləcəyimizi görmək və göstərmək idi, yoxsa o müəssisələrin bağlanması yox. Doğrunu deyəcək olsam, tamamilə bağlanmalarını yox, ancaq əl, ya da konsept (menyu) dəyişdirmələri tərəfdarı olardım, çünki hamıya da, müdavimi olanlara da, hətta uşaqlarına da davamlı bu keyfiyyətsiz qidaları yedirənlərə də məlumdur ki, insan sağlamlığına tamamən zidd bir qida məhsulları var. Ancaq boykotun belə bir məqsədi yox idi. 3 gün, 5 gün, 1 həftə heçkim getməsəydi, xalq olaraq tərəfimizi göstərmiş və o müəssisələrin əmr böyüklərinə mesajımızı vermiş olardıq. Doğrudur, boykot müəyyən qədər alındı, bəlkə də, ancaq könül daha böyük bir kütlənin birləşməsini istərdi.

**-Bir az da uğurlarınızdan söhbət açaq...**

-Heç danışmaq istəmədiyim mövzu. Uğur izafi bir mövhumdur, mənə görə uğur olan bir şey bir digərinə görə elə deyildir, ya da bunun tərsi.

Boykot üçün soruşursunuzsa müəyyən qədər səs gətirdi, deyə bilərdim ki, müəyyən qədər uğurlu alındı.

Əminəm ki, kimlərinsə qulağına çatdı və elə məqsəd də o idi. Sadəcə bayaq da dediyim kimi, kaş həcmi daha böyük olardı ki, qulaqlara çatan qəlblərə də toxunardı. Bəlkə də, toxunub, onu zaman göstərəcək. Başqa hansı uğurumdan danışım bilmirəm, bəlkə də, yoxdur. Varsa da, bundan danışmaq, yəqin ki, mənə düşməz. Ümid eliyək ki, vardır *(gülümsəyir)*.

## «İndi hər şeyi internetdən tapa bilən bir nəsil var»

**-Bir müəllim üçün vacib olan nələrdir?**

-Bir müəllim üçün vacib olan şəxsiyyət yetişdirməkdir və nida. Bu, hər bir dövrün vacib bir tələbi olub. Əslində ancaq texnologiyanın sürətlə inkişaf etdiyi və yeni nəsillərin də çox asanlıqla bu sürətə inteqrasiya edə bildiyi bir dövrdə müəllimin rolu öyrədəndən daha çox formalaşdıran, yönləndirən kimi dəyişmişdir. İndi öyrənmək istədiyi hər şeyi internetdən tapa bilən bir nəsil var qarşımızda.

Əlbəttə hər kəsin o internet imkanı olmaya bilər, ancaq biz onların sadəcə bu günki imkanlarını yox sabahkı üzləşəcəyi hal, ehtiyac və imkanları da nəzərə alaraq dövrə uyğun formalaşdırmalıyıq. Hz. Əli (r.a)'nin çox gözəl bir sözü var, deyir ki, övladlarınızı dövrünüzə görə yox, dövrlərinə görə yetişdirin. Bir müəllim də tam da bunu etməli və valideynləri də buna dəvət etməlidir, təbii ki, izah və təkidlə.

**-Gələcəklə bağlı hansı planlarınız var?**

-Gələcək planlarım çoxdur əslində. Ancaq təhsil sahəsində daha böyük işlər görmək istəyirəm və üzərində də işləyirəm. İstər sosial layihələr olsun, istərsə də iş olaraq görmək istədiklərimin hər biri eyni məqsədi güdür əslində: insanların formalaşması. Bu qədər. Müəllimlikdən əlavə elədiyim işlər var ki, onlarda da əsas fokus insanların formalaşmasıdır.

Əlbəttə ki, bir qab dolduğu zaman daşa bilər ancaq, insanları formalaşdırmaq istəyən adamın da əvvəlcə özünün formalaşması lazımdır, sözsüz ki, bunu da ayrıca qeyd edim.

**Rövşən Tahir**

***Zəki Bayram***

## *Sən nə zaman böyüyüb çatdın şəhid yaşına?*

***Füzuli şəhəri uğrunda döyüşlərdə qəhrəmancasına şəhid olmuş əmim nəvəsi Xəzər Bayramovun unudulmaz xatirəsinə***

*Dünən torpağa verdik Xəzər kimi oğulu;*
*Tək adından canımda təlatümlər doğulur,*
*Doğmaların, dostların yoxluğunda boğulur...*
*Anan salar mehrini soyuq məzar daşına;*
*Sən nə zaman böyüyüb çatdın şəhid yaşına?*

*Bir nəslin budağından qopdu yaşıl bir yarpaq,*
*Ruhun bu gündən belə başımızda al bayraq.*
*Ana tək qucağını açdı sənə bu torpaq,*
*Bizə qaldı əmanət başladığın şanlı yol,*
*Uğrunda öldüyün bu torpaqda rahat ol.*

*Şəhidlik mağarını anan çaşıb toy sanar,*
*Kimisə öz gəlini, səni təzə bəy sanar.*
*Bir qız da gizli-gizli yollarına boylanar;*
*Ürəyində oxşayar ilk arzu, muradını,*
*Dodağında pıçıldar öz-özünə adını.*



*Qarabağ qurtulacaq quzğunlar caynağından,*
*Qartal səsi gələcək qartallar oylağından.*
*Sən öz canından keçdin, qardaşın ayağından;*
*Qalanlara yar olsun anaların duası,*
*Silinsin qəlbimizdən məğlubiyyət havası.*

*Rahat uyu, şəhidim, gözün dalda qalmasın,*
*Bacıların sızlayıb saçlarını yolmasın,*
*El-obanın içində atan sınıq olmasın;*
*Bu Millətin oğludur bütün şəhid oğullar,*
*Şəhidliyə and içən neçə igid oğul var.*

# Ağrı dağında Azərbaycan və Türkiyə bayraqlarının əks olunacağı tarixi açıqladı

**Noyabrın 10-da Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün anım günündə evinin pəncərəsindən Ağrı dağına baxan hər bir erməni, Azərbaycan və Türkiyə bayraqlarını görəcək.**

Bunu Trend-ə açıqlamasında Türkiyənin Ağrı vilayətinin bələdiyyə sədri Savcı Sayan bildirib.

Bələdiyyə sədri qeyd edib ki, layihənin həyata keçirilməsində onlara dəstək olanlar da var. Naxçıvanda fəaliyyət göstərən GemiKaya Holdinq və Ağrı vilayətindən olan iş adamı layihəni dəstəkləyənlərdəndir:

"Bildiyiniz kimi bu, böyük bir layihədir və hal-hazırda onun tamamlanması üçün işlər aparılır. Layihəni reallaşdırmaq üçün xaricdən də mütəxəssislər dəvət edilib.

İdeyanın meydana gəlməsindən danışan S.Sayan əlavə edib ki, Qarabağda Vətən müharibəsinin davam etdiyi bir zaman azərbaycanlı qardaşlarına necə dəstək ola biləcəklərini düşünüblər və qərara alınıb ki, belə bir layihə həyata keçirilsin:

"Ermənistanın eyni zamanda Türkiyəyə də torpaq iddiaları olub, amma onların bu istəkləri qursaqlarında qalıb. Şəxsən mənim babalarım da erməni quldur dəstələrinə qarşı vuruşublar. Biz erməni xislətinə tanışıq".

S.Sayan onu da əlavə edib ki, bütün Türkiyə xalqı azərbaycanlı qardaşlarını sevir və onları tam olaraq dəstəkləyir.

"Həm Türkiyə adından, həm Ağrı vilayəti, həm də öz adımdan qardaş Azərbaycan xalqına salamlarımı çatdırıram.

Biz hər zaman qardaşlarımızın yanındayıq, çünki onlar haqlıdır".

Bələdiyyə sədri əlavə edib ki, illərdir Qarabağ və ətraf rayonların işğal altında olduğu bir zamanda türkiyəli qardaşlarımızın səssiz və rahat oturması mümkün deyildi:

"Qarabağ əldən gedərsə biz ölərik, Qarabağ, Azərbaycan bizim canımızdır. Çünki biz bir millət, iki dövlətik. Bu, hər zaman belə olub, bundan sonra da belə olacaq".

O qeyd edib ki, Azərbaycanın döyüş meydanından əldə etdiyi zəfərlər qururvericidir:

"Azad edilən bölgələrin xəbərlərini aldıqca biz burada bayram edirik. Allahın izni ilə Azərbaycan tezliklə öz torpaqlarını işğaldan tam azad edəcək. Çünki Azərbaycan haqlıdır və Azərbaycanın haqlı olduğunu bütün dünya bilir".

# "Güllə qarnımdan girib belimdən çıxdı"

## Aktyor İsmayıl Atakişiyev danışır

***"Hər kəs gözəl bilir ki, Bakı Bələdiyyə Teatrı döyüşən teatrdır. 1992-ci ildə Amaliya xanım həyat yoldaşı Yusif Muxtarovla birlikdə bu teatrı yaradıb. Bu teatr yaranandan yalnız cəbhə bölgələrindədir. Bizim ən gözəl tamaşaçılarımız əsgərlərimiz, hərbçilərimiz olub. Mən 2004-cü ildə bu teatrın tərkibinə qatılandan sonra da Hərbi-Vətənpərlik mövzulu əsərlər Bakı Bələdiyyə Teatrında aparıcı yer tutub. Bu illər ərzində nə qədər hərbi hissələrdə olmuşuq. Pandemiyaya qədər Füzuli, Beyləqan, Gəncə və başqa ərazilərimizdə yerləşən hərbi hissələrdə əsgərlərimizə tamaşalar vermişik". "Ədalət" qəzetinin qonağı Bakı Bələdiyyə Teatrının aktyoru, Qarabağ qazisi İsmayıl Atakişiyevdir.***

**-İsmayıl bəy, Cəbrayıldansınız. Uşaqlığınız orada keçib. Oraları necə xatırlayırsınız?**

-Bəli, Cəbrayıl rayonundanam. Cəbrayıl rayonunun Karxulu kəndindənəm. O gözəl eldən, o gözəl obadanam. Cəbrayıldan 30 ildir ki, aralı düşmüşəm. Baxın 30 il keçib. Səslənəndə çox asan səslənir, amma elə deyil. 30 il insan ömrü üçün çox uzun bir vaxtdır. 30 ilin keçməsinə baxmayaraq o yerləri hər bir detalına qədər, xırdalığına qədər xatırlayıram. Elə bil oradan ayrıldığım 30 il deyil, 3 ildir. Bu dərəcədə mənim yaddaşımda oralar yaxşı qalıb. Düzdür, Bakı mənim gəncliyimin şəhəridir, amma uşaqlığım Cəbrayılla bağlıdır axı. Həmişə fəxr etmişəm ki, rayon, kənd mühitində böyümüşəm. Kənd, rayon Allahın özünün yaratdığı bir gözəllikdir. Baxın şəhəri insan əli, insan təxəyyülü qurur, yaradır, amma rayon, kənd elədir ki, o təbiəti Allah bəxş edir. Həmişə dostlarıma zarafatyana deyirəm, mən təbiətin orjinalını görmüşəm. Yazı yaz, qışı qış, payızı da payız kimi görmüşəm. Cəbrayıl rayonu haqqında bir az məlumat vermək istəyirəm. Cəbrayıl rayonu dağlıq və dağətəyi rayon sayılır. Böyüyüb boya-başa çatdığım kənd dağətəyidir. O vaxt ora dağətəyi deyil, Araz boyu deyərdik. Kəndimizin bir tərəfi dağdır, bir tərəfi isə Arazla əhatə olunub. Ona görə Araz boyu deyirdik. Cəbrayıl bulaqları, çinarları ilə məşhur olan bir rayondur. Sizə bir şey deyim, bu 30 ildə yuxularımda kəndimizi görürdüm. İnanın ki, yuxumda gördüyüm gün çox gözəl keçirdi mənim üçün. Bir ana-atamı, bir də kəndimizi yuxumda görəndə bütün işlərim qaydasında gedirdi. Mənə elə gəlir ki, bu tək məndə belə deyil, bütün qaçqın və məcburi köçkünlərdə belədir. Tam səmimi deyim, qaçqın düşdükdən sonra heç bir bayramın, nə Novruzun, nə Yeni ilin dadı-duzu mənim üçün qalmamışdı. 18 yaşım olanda kəndimizi tərk etmişdim. Daha sonra Bakıya gəldim, Orduya çağrıldım və döyüşlərdə iştirak etdim.

### *«Müharibədən xoş xatirələr yadımda qalmayıb»*

**-Elə 90-cı illərdən danışaq...**

-90-cı illərdə orta məktəbi bitirdim, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə sənədlərimi verdim. Daha sonra imtahan ( O vaxt test deyildi, imtahan müəllimlər tərəfindən götürülürdü) verdim. İmtahan verdiyim il kəsildim. Sonra yaşımla əlaqədar Ordu sıralarına çağrıldım. Həmin vaxt müharibənin ən qızğın dövrü idi. Ona görə də Orduda xidmət etdiyim dövr müharibənin ən qızğın vaxtına düşdü. 4 ilə yaxın Orduda xidmət etdim. 4 ildə Qarabağın çox yerlərində oldum. Daha çox olduğum yer Qubadlı oldu. Neçə ilimi Qubadlıda keçirdim, Cəbrayılda döyüşdüm. Suqovuşan ərazisində oldum. Birinci dəfə Ağdərədə döyüşlərdə iştirak edərkən yaralandım.



**-Müharibə dövründəki xatirələriniz...**

-Xatirələr nədən ibarət ola bilər? Ancaq müharibə. Xatirələrimiz döyüşlərə girməyimizdir, dostlarımızın şəhid olmasıdır. Müharibədən xoş xatirələr yadımda qalmayıb. O vaxt müharibənin gedişində çoxlu şəhidlər verdik, torpaqlarımız işğal olundu. İndiki kimi deyildi o vaxt. Hərcmərclik idi, silah çatışmırdı. Amma o vaxt da insanlarımıda Vətənpərvərlik yüksək idi. İndiki dövrdə Vətənpərliyimiz də var, üstəlik silahlarımız da. Ali Baş Komandanı Allah qorusun. O vaxt indi olan silahları yalnız xəyal edə bilərdik. Çox çətin bir dövr idi.

İndiyə qədər yaralandığım tarix saatına qədər yadımdadır. O da niyə yadımdadır, deyim. Birinci dəfə başımdan yaralanmışdım. 1993-cu il fevral ayının 19-da ermənilər tərəfdən mühasirəyı alındıq. Çox çətin bir vəziyyət yarandı. Hamı pərən-pərən düşmüşdü.

Həmin vaxt başımdan snayper yarası aldım. Düşünün fevral ayının 19-u və qar dizdəndir. Komandir dedi ki, dağın başına qalxmalıyıq. Soruşdu ki, kimdə saat var və saat neçədir? Dedim, məndə var və saat 3-ə qalır 10 dəqiqə. Əmr verdi ki, yuxarı qalxaq, çünki mühasirədən çıxmalı idik.

Döyüşə-döyüşə dağın yuxarısına doğru addımladıq. Düzdür, mən çox silah ata bilmirdim, çünki başımdan qan açılırdı. Təsəvvür edin ki, qarı yığırdım papağın içinə, papağı da qoyurdum başıma ki, qan dayansın. Beləcə mühasirəni yardıq və çıxdıq. Axşamüstü Tərtərin xəstəxanasına gətirildim. Sağalıb yenidən Orduya qayıtdım. 1994-cu ildə bir də yaralandım. Bu dəfə isə Füzuli istiqamətində gedən döyüşlərdə qarın nahiyəmdən güllə yarası aldım. Güllə qarnımdan girib belimdən çıxdı. Onda artıq heç nə hiss etmirdim. Çox ağır yaralı idim. Buna görə də ikinci dəfə yaralandığım andan sonrakı müddəti xatırlaya bilmirəm.

### *«Torpaqlarımız işğaldan azad edilir»*

**-Doğma Cəbrayılımız işğaldan azad olundu...**

-Torpaqlarımız 30 ildir ki, işğal altında idi. Həmişə içimdə bir inam olub ki, torpaqlarımız qayıdacaq, mütləq qayıdacaq. Amma bir sual verirdim özümə ki, ömür vəfa edəcəkmi, onu görüm? Bir tək narahatçılığım bu idi. Torpaq həsrəti ilə çox insanlar dünyasını dəyişdi. O cümlədən mənim valideynlərim. Ona görə mən də bundan narahat idim ki, birdən ömrüm yetməz. Şükür Allahın bu gününə, min şükür olsun, bu gününə ki, biz artıq torpaqlarımızı işğaldan azad edirik. Müharibə başlayandan hər yerdə deyirəm ki, Ali Baş Komandan, Cənab Prezident İlham Əliyev mənim artıq əbədi Prezidentimdir. Cənab Prezidentin rəhbərliyi və rəşadətli Ordumuzun şücaəti sayəsində torpaqlarımız işğaldan azad edilir.

Sizə bir şey deyim, qaçqınlıq adı həmişə bizi sıxan bir şey olub. 30 ildə bu ad hamımızı sıxıb. Özümü həmişə narahat hiss etmişəm. Ordumuz bu adı üstümüzdən götürdü. Başqa dövlətlərdə olanda eşidirdik də, deyirdilər ki, ermənilər torpaqlarınızı işğal edib, amma siz onları çıxara bilmirsiniz. İnsan susqun vəziyyətdə qalırdı. Bax Cənab Prezident bizim susqunluğumuza son qoydu. Müharibə özümüzü özümüzə qaytardı. İndiki əks-həmlə hücumumuz sayəsində torpaqlarımız işğaldan azad olunur.

Cəbrayılın işğaldan azad edilməsi xəbərini eşidəndə bilmədim ki, yerdəyəm, yoxsa göydə. O ki, deyir, nə yerdəyəm, nə göydə, bax elə bir vəziyyətdə idim. Bu hissi heç kimə izah edə bilmərəm. Tamam başqa bir hissdir. 30 ildən sonra torpaqlarımıza yenidən qayıtmaq hissi sadəcə möhtəşəmdir. Bu xoşbəxtliyə heç ad verə bilmirəm.

### *«Birinci dəfə imtahan verib kəsildim»*

**-Mövzunu bir az dəyişək. Yaradıcılığınızdan söhbət açaq...**

-Aktyorluğa meylim uşaqlıqdan olub. Orta məktəbdə oxuyanda artıq müəyyən etmişdim ki, aktyor olacam. Sizə bir şeyi deyim, o vaxt rayon yerində aktyor sənətini qəbul etmirdilər. Hər kəs övladının ya həkim, ya müəllim olmasını istəyirdi. Mənim isə həvəsim aktyorluğa idi. Amma utanırdım, deyəm ki, mən aktyor olacam. Ona görə də kimsə soruşanda ki, böyüyəndə hansı peşəni seçəsən, deyirdim, bilmirəm.

Amma özlüyümdə bilirdim, aktyor olacam. Bu o vaxta qədər davam etdi ki, bizim hamımızın sevdiyi 3 hissəli bir tamaşa (Səni axtarıram, Səndən xəbərsiz, Bağışla) ərsəyə gəldi. O tamaşaya baxandan sonra məndə qəti bir qərar formalaşdı ki, aktyor olacam.

Kim soruşurdusa da, artıq açıq-aşkar cavam verirdim. Orta məktəbdə ingilis dili müəllimim Əli Vəliyev biləndə ki, aktyorluğa gedirəm, dəstəklədi. Mənə kitablar gətirdi. O vaxt bizim qonşumuz var idi: Valeh Heydər. İndi gözəl şeirləri ilə gündəmdədir. O vaxt ondan da bu sənət haqqında maraqlanmışdım.

1990-cı illərdə birinci dəfə imtahan verib kəsildim. Sonra döyüşlərdə iştirak etdim. Daha sonra isə 1996-cı ildə aktyorluğa imtahan verdim. O vaxt hamımızın çox istədiyi, Allah rəhmət eləsin, Vaqif İbrahimoğlunun kursuna daxil oldum. Onunla yanaşı Xalq artisti Məmməd Səfa müəllimimiz oldu. 4 il boyunca hər ikisindən dərs aldım. Universiteti bitirdikdən sonra təyinatımı Hüseynağa Atakişiyevin teatrına-Gənclər Teatrına aldım. Teatrda 4 il işlədim. Sonra əfsanəvi aktrisamız, Xalq artisti Amaliya xanım Pənahovanın teatrına gəldim. Çox sağ olsun, məni bu teatra götürdü. Bu mənim üçün böyük şərəf oldu. Amaliya xanım kimi bir aktrisanın teatrında işləmək, həqiqətən, qürurverici idi. Nə yaxşı ki, bu xoşbəxtlik mənə nəsib oldu. Ta o vaxtdan bu günə kimi Bakı Bələdiyyə Teatrında çalışıram, oranın aparıcı aktyorlarından biriyəm.

Hər kəs gözəl bilir ki, Bakı Bələdiyyə Teatrı döyüşən teatrdır. 1992-ci ildə Amaliya xanım həyat yoldaşı Yusif Muxtarovla birlikdə bu teatrı yaradıb. Bu teatr yaranandan yalnız cəbhə bölgələrindədir. Bizim ən gözəl tamaşaçılarımız əsgərlərimiz, hərbçilərimiz olub. Mən 2004-cü ildə bu teatrın tərkibinə qatılandan sonra da Hərbi-Vətənpərlik mövzulu əsərlər Bakı Bələdiyyə Teatrında aparıcı yer tutub. Bu illər ərzində nə qədər hərbi hissələrdə olmuşuq. Pandemiyaya qədər Füzuli, Beyləqan, Gəncə və başqa ərazilərimizdə yerləşən hərbi hissələrdə əsgərlərimizə tamaşalar vermişik.

**-Oxuculara rollarınız barəsində məlumat verə bilərsiniz?**

-Oynadığım rollar çoxdur. Teatrın repertuarında elə bir tamaşa yoxdur ki, mən orada rol almayım. İrili-xırdalı müxtəlif rolları canlandırmışam. "Dəli Domrul"da Dəli Domrulu, "Daşa dönmüş ürək"də professor Cəmşidov, "Nəsimi"də Şeyx Əzəmi, "Türk sancağı"nda cinli Həsəni, "Vətənə igidlər gərək"də komandir, Abdulla Qurbaninin "Çingiz" dastanı əsasında səhnələşdirilmiş tamaşada komandir rollarını oynamışam. Çoxdur rollar. Amaliya xanım çox sağ olsun ki, mənə etimad göstərib və rollar verib.

**-Aktyor kimi hansı rolu canlandırmaq istəyərsiniz?**

-Bir çox rollarda oynamışam. Amma indiki şəraitdə içimdən keçən bir rol var, döyüşlərdə iştirak edib qələbə çalan və torpaqlarımıza Bayraq sancaq komandirlərdən birini canlandırmaq istəyərdim. Düzdür, indiyə qədər müxtəlif komandir obrazlarını canlandırmışam, amma indiki şəraitdə Şuşaya Bayraq sancan komandir obrazını oynamaq istəyərəm.

**Rövşən Tahir**

---

Səttar Əliyev
Bütün futbol həyatını "Qarabağ"a həsr edən məşqçi

## Ağdamın girişində əyilib torpağı öpəcəm



**"İlk gündən səfərbərliyə yazılmışam. Hər an hazıram. Ordakıların heç birindən artıq deyilik. Rayonlarımız işğaldan azad olunduqca düşünürəm ki, görəsən, Ağdamın xəbərinə dözə biləcəyikmi? Dostlarla Ağdam, Cəbrayıl tərəfə yardım aparırıq, amma içəri buraxmırlar. Qardaşımoğlu və başqa qohumlarım hazırda cəbhədə döyüşür. Elə bil dünyaya yenidən gəlmişik. Yenidən dil açıb danışacağıq, ayaq açıb yeriyəcəyik. Zəngilan, Cəbrayıl, Füzuli, Qubadlı işğaldan azad olunub. Böyük həsrətlə Şuşanın, Laçının, Kəlbəcərin və digər rayonların azad olunmasını gözləyirik. Hər yer azad olunmadıqca içimizdəki yara qalır. Hər yer azad olunanda daxilimizdəki yaralar da təmizlənəcək. Atam-anam Ağcabədidən bu tərəfə gəlmədilər ki, burda Ağdamın iyin alaq. Elə Ağcabədidə də dünyaların dəyişdilər. Övladlarım Ağdamı görməyiblər, amma o gün mənə deyirlər ki, "ata, Ağdamdan torpaq gətirib babamın, nənəmin üstünə tökək ki, onların ruhları şad olsun". Ağdamın girişində əyilib torpağı öpəcəm".**

**Sportinfo.az**

---

## ЗАЯВЛЕНИЕ БОЛЕЛЬЩИКОВ ФУТБОЛА АЗЕРБАЙДЖАНА



**В последние дни все внимание общественности приковано к Карабаху. Каждый патриот нашей родины наряду с новостями с фронта, пристально следит за выступлением футбольного клуба "Карабах" в Лиге Европы. Однако одно из предвзятых действий, предпринятых против представляющей нашу страну команды в данном турнире, не может нас не тревожить. Речь идет о том, что телеканал "Матч ТВ" в отличие от предыдущих лет, не транслирует игры азербайджанского представителя в турнире. В то время как, доблестная Азербайджанская армия борется за освобождение родных земель, принять этот факт достаточно тяжело.**

**"Матч ТВ" транслируется в Азербайджане и имеет довольно солидную аудиторию. Однако довольно тяжело принять факт бойкотирования нашего еврокубковвого представителя. Возможно, данное действие связано с позицией как директора телеканала Тины Канделаки, так и с комментаторами армянского происхождения, работающих там. Хотя следует отметить, что страна, которую представляет данный телеканал - Российская Федерация, признает территориальную целостность Азербайджанского государства. В связи с предвзятым решением не транслировать матчи ФК "Карабах" мы, азербайджанские любители футбола, категорически осуждаем и бойкотируем канал "Матч ТВ"**

**В нашей стране право на трансляцию еврокубковвых игр, а также многих национальных первенств, принадлежит телеканалам "ЪБЪ Спорт" и "Идман ТВ". Впредь мы будем следить за всеми матчами посредством данных отечественных каналов.**

**Доводим также до сведения канала "Матч ТВ", что независимо от вашей позиции по данному вопросу, Азербайджан скоро восстановит свою территориальную целостность, а ФК "Карабах" будет проводить свои домашние матчи на родной, исторической земле, в Карабахе!**

**Карабах-это Азербайджан!**

**Redaksiyadan:
Nəyə görə rus dilində
yayımladığımızı yəqin ki bildiniz.**

---

# Zülfiyyə Qurbanova: "Qələbə bizimlə olacaq"

**"Heç kim istəmir ki, müharibə olsun. Heç mən də istəmirəm. Amma bəzi hallarda müharibə qaçınılmaz olur. Müharibə yaradır, müharibə ağrıdır, müharibə yarımçıq qalmış talelərdir, gözü yolda qalmış körpə balalardır, atasız böyüyən uşaqlardır, oğulsuz böyüyən analardır. Heç birimiz istəmirik, müharibə olsun. Amma dediyim kimi, bəzi məqamlarda müharibənin baş verməsi labüd olur. Hələ sənin düşmənin erməni kimi murdar, xislətsiz bir millətdirsə, müharibə qaçınılmazdır. Ermənilər dəfələrlə atəşkəs rejimini pozdular, bizi müharibəyə sövq etdilər. Biz özümüzü müdafiəyə keçməli idik ki, keçdik.**

Ermənilər çox xislətsiz, murdar insanlardır. Bu əzbərdən deyilmiş sözlər deyil, həqiqətən belədir. Birinci Qarabağ müharibəsindən bu vaxta qədər keçən dönəm özü sübut etdi ki, ermənilərin xislətində heç bir şey dəyişilməyib. Sadəcə zaman keçib. Gəncə, Bərdə, Tərtər hadisələri buna sübutdur. Mən Gəncə hadisəsini sosial şəbəkədən oxudum, anında televizoru açdım və Gəncədən birbaşa canlı efir gedirdi. Türk kanallarında göstərilirdi. Həmin an qanım dondu. İnanın səmimiyyətimə, günlərlə özümə gələ bilmədim *(ağlayır)*.

Düşünürsən ki, dağıntıların altında kimsə, bəlkə də, sağdır və imdad istəyir. Ölüm sayı çoxaldıqca insanda stress, əsəb, çarəsizlik üst-üstə gəlir.

Mən ağrının nə olduğunu çox gözəl bilirəm. Bu yaşımda ana itirmişəm deyə bilirəm. Dünyanı dərk edirəm, ölümü dərk edirəm. Həmin körpə uşaqların anasız qalması, anaların övladsız qalması, bütün ailə üzvlərinin vəfat edib tək bir uşağın qalması adama dağ çəkir. Mən bu yaşımda hələ valideynsizliyi qəbul etməmişəm, bəs o uşaqlar necə valideynsiz böyüyəcək? Adam onu fikirləşir. Dünya yığılsa da, bir ananın nəvazişininin əvəzini heç kim və heç nə vermir.



Adamın ürəyi parçalanır. Hələ o dağıntıların altından ölmüş insan bədənləri çıxarıldıqca insanın daxili üsyanı daha da artır".

Bu sözləri Adalet.az saytına açıqlamasında Bakı Bələdiyyə Teatrının aktrisası Zülfiyyə Qurbanova söyləyib: "Mən humanist insan deyiləm. Yəni o psixologiyaya malik insan deyiləm ki, mənə silah uzadana mən çiçək uzadım. Məndə elə bir şey yoxdur, mən elə bir dünyanın adamı deyiləm. Mən "Qana qan, ölümə ölüm!" düşüncəsinə malik olan insanam. Ona görə mən düşünürəm ki, ermənilər elədiklərinin cəzasını çəkməlidirlər. Gəncəyə, Bərdəyə, Tərtəyə dəfələrlə raket atdılar. Sosial şəbəkələrdə onların aqresssiyasını, saxta məlumatları dünyaya yaymasını görürsünüz də. Çox həyasız millətdir. Onlar kimi ikinci bir həyasız toplum görməmişəm. Təəssüf ki, bu boyda dünyada dövlətlər, ölkələr ola-ola, erməni ilə qonşu olmuşuq.

Törətdiyi terror hadisələri ilə onlar sübut etdilər ki, xislətsizdirlər. Mən bütün şəhid analarının qarşısında baş əyirəm. Onların oğulları olmasaydı, bizim torpaqları kim qoruyardı? Yenə deyirəm, şəhid anaları qarşısında baş əyirəm. Orduda döyüşən, ön, arxa cəbhədə olan hər kəsin qarşısında baş əyirəm. Bizim birliyimiz var idi, amma bu müharibə bizi daha çox birləşdirdi.

Xalamın övladları Birinci Qarabağ müharibəsində döyüşüb, qəlpə yaraları alıblar. Ömürlərini qəlpə yaraları, ağrıları ilə keçirən insanlardır. Mən onların çəkdiyi əziyyətləri bilirəm. Bu haqda danışmaq istəmirəm. Hazırki müharibədə dayım övladları döyüşür. Odur ki, mən ağrı-acının nə demək olduğunu bilirəm.

Bu gün hər kəsin gözü yoldadır, hər kəs doğmalarının yolunu gözləyir. Allah hər kəsin sevdiklərini, doğmalarını qorusun. Allahın izni ilə müharibə bizim xeyrimizə olacaq, qələbə bizimlə olacaq. Allah bütün şəhidlərə rəhmət eləsin. Allah Xalqımızı, Ordumuzu, Ali Baş Komandamızı qorusun".

**Rövşən Tahir**

---

## *Messidən Maradonaya dəstək*

**Argentina millisinin və "Barselona"nın kapitanı Lionel Messi beyin əməliyyatı keçirən əfsanəvi futbolçu Dieqo Maradonaya dəstək nümayiş etdirib.**



**Qol.az xəbər verir ki, o, özünün "İnstaqram" səhifəsində "Ximnasiya"nın baş məşqçisinin tezliklə sağalmasını arzulayıb: "Dieqo, dünyanın bütün gücü sənin üçündür. Ailəm və mən sizi ən qısa müddətdə görmək istəyirik. Sizi qəlbimlə qucaqlayıram".**

---

Dünyamalıyev Tahir Qüdrət oğluna məxsus Kürdəmir rayon Atakişili kəndində yerləşən 05.08. 2008-ci il tarixdə verilmiş reyestr nömrəsi 906013000633-06301 olan Texniki pasport itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən Qurbanov Pərvin Səməd oğlunun adına verilmiş 1819 nömrəli İş vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**

**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 2000**
**Sifariş: 22**
Çapa imzalanmışdır:
04.11.2020